# KİÇİK SURƏLƏRDƏ BÖYÜK DƏYƏRLƏR



Hacı Əhliman Rüstəmov

# KİÇİK SURƏLƏRDƏ BÖYÜK DƏYƏRLƏR

Müəllif: Hacı Əhliman Rüstəmov



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Bakı-2008

**Bismillahir-Rahmənir-Rahim**

**Allahın salam və salavatı olsun
Peyğəmbər və onun Əhli-Beytinə**

Quran, 14 əsrdən artıqdır ki, müqəddəs bir kitab olduğunu dəfələrlə sübut etmişdir. Müqəddəsliyindən əlavə çox dərin elmi, əxlaqi və mənəvi dəyərləri özündə toplamışdır. Elm, əxlaq və mənəviyyata aşiq olanlar Quran nazil olandan onun dərinliklərinə vararaq Qurandan bəhrələnib başqalarını da bu böyük olan İlahi nemətlə sirab ediblər. Bu kitab Allah-Təala tərəfindən nazil olduquna görə ondan ən çox və ya lazimi qədər bəhrələnənlər ilahi insanlar olublar. Başqaları da Qurandan istifadə edib, amma hərə bir cəhətdən. İlahi insanlar isə onun bütün dərinliklərindən gələn ilahi göstərişləri və ilahi dəyərləri əxz edərək həm özləri ona əməl edib, həmdə onları insanlara öyrədərək bu kitabda olan ilahi əmrləri icra etmişlər.

Quranın ilk təfsirçiləri Həzrət Peyğəmbər (s) və Həzrət Əli (ə) olubdur. Ondan sonra Quranın öz dili ilə desək elmdə möhkəm olanlar bu işi davam etdirmişlər. Bunlardan əlavə böyük İslam alimləri bu



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

şərəfli işi öz öhdələrinə götürmüş, müxtəlif cəhətlərdən Qurani-Kərimə təfsir yazmışlar. Biz də onlara iqtida edərək və onların səliqəsindən istifadə edərək yazılmış təfsirlərdən bir formada hamının istifadə edəcəyi bir yazı ərsəyə gətirmək istəyirik. Etiraf etməliyəm ki, Quranı təfsir etmək bizim qüvvəmizdən kənardır. Lakin yazılmış bir neçə təfsirdən və tərcümədən köməklik alaraq bu işin məsuliyyətini qəbul etmişik. Məqsədimiz də, yuxarıda dediyimiz kimi, budur ki, Quranın tərcuməsi ilə məşğul olmaq istəyən hər bir adam bu yazıdan bəhrələnərək müqəddəs kitabla ünsiyyət yarada bilsinlər. Inşa'Allah qismət olsa bu yazını dərslik formasına salaraq fəsillərə bölər, az səhifələr şəklində çap edərik. Bununla da onu əldə etmək, ondan istifadə etmək əziz oxucular üçün çətin olmasın. Yeri gəlmişkən qeyd edək ki, əgər bu işdən hər nə qədər səvab qismətimiz olsa, onu da dünya və axirət xanımı olan Həzrəti Fatimə (ə)-ın ruhuna hədiyyə edirik. Bu ümid ilə ki, o xanım dünya və əxirətdə bizə yardımçi olsun.

Məqsədimizə çatmaq üçün Allah-Təaladan köməklik istəyirik. Inşa'Allah.

Əvvəldə Quranın kiçik sürələrindən başlayırıq ki, oxucular üçün həm asan olsun, həm də yorucu olmasın.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

## Birinci dərs
## "Nas" surəsi

Şeytanlar və şeytan sifət insanların təhlükəsi barədə.

بسم الله الرحمن الرحيم

قُلْ أَعُوذُ بِرَبِّ النَّاسِ مَلِكِ النَّاسِ إِلَهِ النَّاسِ مِن شَرِّ الْوَسْوَاسِ الْخَنَّاسِ الَّذِي يُوَسْوِسُ فِي صُدُورِ النَّاسِ مِنَ الْجِنَّةِ وَ النَّاسِ

**"Nas" surəsinin kəlmələri:**

ب- ilə, اسم - ad,

بسم - (باسم) adı ilə

الله - Allah

ال - müəyyənlik və məlum

الرحمن - çox rəhm edən,çox mehriban, çox bağışlayan; bu dünyada hamıya qarşı mehriban və bağışlayan

الرحيم - bağışlayan və mehriban, axirətdə yalnız iman gətirənlərə qarşı mehriban və bağışlayan



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

قل - de

اعوذ - pənah aparıram

رب - dolandıran, yaradan, tərbiyyələndirən, həqiqi malik, məxluqatı yaratdıqdan sonra özbaşına buraxmayıb tərbiyə və nəzarət edərək yol göstərən

ناس - camaat, insan

الناس - bütün camaat, insanlar

ملك - şah, sultan

اله - sitayiş və pərəstiş olunan, məbud, pənahgah, bir varlıq ki, fikrlər və düşünçələr onu dərk etməkdə acizdirlər

من - dan, dən (şəkilçi)

وسواس - şeytan, şeytanın vəsvəsəsi, şeytanın hiyləsi, xüsusi pisxoloji (ruhi) xəstəlik

خناس - şeytan, çox pis mövcud, təhlükəli və fasid mövcud, bəzən gizli və bəzən aşkar olan mövcud, insanı aldadan bir varlıq

الذى - o ki, elə bir şəxs ki,

يوسوس - aldadar, azdırar, pis fikrləri insanın qəlbinə salar

فى - da, də

صدور - sinələr

جنة - cin, gözlə görünməyən bir varlıq



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

**Hərfi tərcümə**

De: pənah aparıram camaatın yaradanına, camaatın padşah, sultan, və malikinə, camaatın məbuduna (ibadət etdikləri varlığa) şeytanın vəsvəsəsinin şərrindən, o şeytan ki, insanların sinəsində vəsvəsə edər. O vəsvəsə edən ki, insan və cindən ola bilər.

**"Nas" surəsinin təfsiri**

Qurani - Kərimin axırıncı surəsi olan bu surədə Allah-Təala Peyğəmbər (s)-i rəhbər kimi çamaata göstərərək buyurur: "De pənah aparıram çamaatı yaradan və tərbiyə edənə"

قل اعوذ برب الناس

Belə fikrləşmək olur ki, Allah-Təala Peyğəmbər (s) kimi bir şəxsiyyətə pənah aparmağı və Allaha sığınmağı əmr edirsə, bizə lazımdır ki, bu məsələdə daha çox diqqət edək və bir an da Allaha pənah aparmaqdan qafil olmayaq.

Ardıyca buyurur: "Camaatın malik və padişahına"

ملك الناس

"Camaatın məbuduna"

اله الناس

Diqqət etməli budur ki, burada Allah-Təalanın böyük sifətlərindən olan üç sifəti (Rəbb,



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Malik və Məbud) gətirilir və bildirilir ki, bu sifətlər insanın tərbiyəsində böyük rol oynayaraq onu vəsvəsə edənlərin caynağından xilas edə bilir.

Əlbəttə pənah aparmaqdan məqsəd bu deyil ki, insan təkcə bu sözləri dili ilə desin. Bəlkə (əksinə olaraq - red.) lazımdır ki, onu əməli surətdə həyata keçirsin. Əməldə də Allaha pənah aparsın. Şeytani yollardan uzaq olsun. Şeytani məclislərə getməsin, şeytani fikrlərin yerini, ilahi fikrlərlə dəyişdirsin. Yoxsa əmələn şeytani işləri edib, dildə bu sözləri ifadə etməklə insan hər bir təhlükədən xilas ola bilməz.

Surənin davamında Allah-Təala buyurub: “xənnasın vəsvəsəsinin şərrindən ”

من شرالوسواس الخناس

“O, kəsdən ki, insanların sinələrində vəsvəsə edir”

الذى يوسوس فى صدور الناس

Bu vəsvəsə edən elə bir imkana malikdir ki, insanın qəlbini öz yuvasına çevirir, onun ixtiyarını ələ alır, imanını oğurlayır və nəhayət insanın abrını, qeyrət və namusunu, mal və dövlətini, daxili rahatlığını bərbad edir.

“Cindən və insandan olan vəsvəsə edən”

من الجنة والناس

Bəli pənah aparıram Allaha, çox ziyanlı, fəsadlı olan bir mövcuddan ki, şeytan adlanır. İstər bu şeytan cin tayfasından olsun ya insan, istər gözə görünən


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

olsun ya görünməyən məhsus (hiss olunan – red.) bir varlıq olsun ya hiss olunmayan. Bir sözlə hər nə məni Allah-Təaladan uzaqlaşdıracaq, məni Allahın izzət kölgəsindən çıxarıb, şeytan və şeytan sifətli məxluqatın zillət kölgəsinə salacaqsa ondan böyük olan Allaha pənah aparıram.

**“Nas” surəsinin hədəfi**

1- Bu surədən belə alınır ki, ən əzəmli insanlar da daimi Allaha pənah aparmalıdır.

2- Bu surənin ali hədəfi əvvəlcə insani həqiqi məbudun tərəfinə yönəlməkdir. Sonraki mərhələdə isə təhlükə elan edilərək insanlar iki böyük şərr qüvvədən - şeytanlar və şeytan sifət insanlardan qorunmağa çağırılır.

3- من الجنة والناس “Cinlərdən və insanlardan ” ibarət olan vəsvəsə edənlər cümləsindən belə məlum olur ki, vəsvəsə etmək təkcə Allah dərgahından qovulmuş iblisə məxsus deyil. Bu sözün geniş mənası vardır. Hər bir fəsad törədən mövcudlara da aid olur (mikrob kimi). “Xənnas” deyəndə həm o şeytana həmdə onun kimi olan insanlar və cinlər də nəzərdə tutulur.

İlahi! Bizi şeytan və şeytana xidmət edən bütün məxluqatın şərrindən qoru; onların şərrindən sənə, rəbbimizə, padşahımıza, məbudumuza, pənah gətiririk!

Amin, ya Rəbbəl aləmin.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

## "Nas" surəsinin xüsusiyyətləri

1- İnsan daim şeytanların vəsvəsəsilə üzləşir. İnsanlardan və cinlərdən olan şeytanlar çalışırlar ki, onu azdırsınlar. İnsanın məqamı yüksəldikcə onun düşmənləri də böyüyür. Onun çaşmasına əvvəlkindən artıq vaxt və güc sərf edirlər. Bu sürədə Allah-Təala göstəriş verir ki, şeytanların şərrindən ona pənah aparaq.

"Nas" surəsinin Məkkədə və Mədinədə nazil olması barədə fikir ayrılığı vardır. Amma Məkkədə nazil olmasına ehtimal daha artıqdır.

2- Bu surənin fəziləti barədə çoxlu rəvayətlər vardır. İmam Baqir (ə) buyurub: hər kəs "vətr" namazında bu surəni, "Fələq və İxlas" surəsini oxusa onun namazı qəbul olunar və ona bu barədə mələklər müjdə verərlər. Başqa bir rəvayətdə deyilir: Peyğəmbər (s) xəstə olan Cəbrail və Mikayil gəlib "Nas" və "Fələq" surələrini onun başı üzərində oxudular və o, Həzrət şəfa tapdı.

3. Bu surə ona görə "Nas" adlanıb ki, "nas" kəlməsi onda bir neçə dəfə təkrar olunub.

## Sual və tapşırıqlar.

1. Bu sürənin adları nədir və nə üçün bu adla tanınır?

2. "Nas" surəsi harada nazil olub?

3. "الله " (Allah) kəlməsinin mənası nədir?



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

4. “ جناس ” (xənnas) nəyə deyilir?
5. “Nas” surəsinin hədəfini izah edin:
6. “ اله ” (ilah) kəlməsinin mənası nədir?
7. “رب”(rəbb) kəlməsinin mənası nədir?

## İkinci Dərs
## “Fələq” surəsi

بسم الله الرحمن الرحيم

قُلْ أَعُوذُ بِرَبِّ الْفَلَقِ مِن شَرِّ مَا خَلَقَ وَمِن شَرِّ غَاسِقٍ إِذَا وَقَبَ وَمِن شَرِّ النَّفَّاثَاتِ فِي الْعُقَدِ وَمِن شَرِّ حَاسِدٍ إِذَا حَسَدَ

### “Fələq” surəsinin kəlmələri:

قل :- De

رب : - Padşah, Yaradan, Sahib, Malik, məxluqatı yaratdıqdan sonra özbaşına buraxmayıb tərbiyə və nəzarət edərək yol göstərən



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

فلق : - Sübh vaxtı, gecənin qaranlığının acılması, batilin qalın pərdələrinin acılıb həqqin onun arasından aşkar olması, yaratmaq, yaradılan.

من - dan, dən (şəkilçi)

شر - şər, ziyan, fəsad, pislik

ما - bir şey, nə, o ki, o şey ki

خلق - yaratdı, yaranıbdır

غاسق - qaranlıq, zülmət qaranlıq, ayın tutulan vaxtı, hücüm edən, daxil olan

اذا – o zaman, o vaxt

وقب - daxil oldu, gizləndi, tutuldu, əhatə etdi

نفاسات - sehr edən qadınlar, düyünlərə üfürənlər

فى - da, də (şəkilçi)

عقد - düyün

حاسد – həsəd edən, pislik istəyən

حسد - həsəd etdi

**Hərfi tərcümə**

“De pənah aparıram sübhün sahibinə, (gecəni gündüz edənə) bütün yaradılmışların şərrindən, bütün qaranlıqların şərrindən, o zülmət və qaranlıq ki, cəmiyyəti əhatə edir, pənah aparıram bütün sehr edənlərin sehrindən (düyünlərə piləyənlərin şərrindən) həsəd edənlərin şərrindən, o vaxt ki, həsəd edirlər”.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

## “Fələq” surəsinin təfsiri.

قل اعوذ برب الفلق

- Ey peyğəmbər de: Pənah aparıram “fələqin” Allahına. Yəni zülmətləri nura çevirənə, dənəni sındırıb içərisindən bitkilər göyərdən Allaha, batili sındırıb içərisindən haqqı aşkar edən Allaha. O, Allaha ki, xurafat və batil fikrlərin arasından aydın olan şüuru kainata bəxş edir, daşları yarıb arasından duru suları cari edən Allaha. Fələqin ümumi bir mənası da vardır - hər bir şeyi yaratmaq. Yəni pənah aparıram bütün yaranmışları yaradana

من شر ما خلق

bütün yaranmışların şərrindən. Bəli, pənah aparıram Allaha tamam məxluqatdan. Xususən bu şərr quvvə insandan ola və insanların arasında yaşaya onun təhlükəsi daha çox olar. Bu ayənin zahirindən belə hesab olunmasın ki, Allah-Təalanın yaratdığı hər nə varsa şərdir. Xeyr; Qurani-Kərim buyurur: الذى احسن كل شئ خلقه (Əlif lam mim səcdə) “Allah elə bir varlıqdır ki, nə yaradıbsa gözəl yaradıb Allahın hər yaratdığı gözəldir. Lakin onlar ilahi qanunları pozaraq şər qüvvəyə çevrilirlər və o zaman ziyanverici olurlar.”

ومن شر غاسق اذا وقب

(Pənah aparıram Allaha hər bir ziyanverici mövcuddan, o zaman ki, varid olarlar) “غاسق” (ğasiq)



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

gecənin zülmət qaranlığına deyirlər. Bu vaxt yırtıcıların və oğruların hücum eyləyən vaxdıdır. Ona görə gərək Allaha pənah aparasan. Bu ayədə söz üçün ümümi bir məfhum nəzərdə tutulubdur. Pənah apariram Allaha zülmət qaranlıqdan, o vaxt ki, cəmiyyəti əhatə edir. Hansı zülmət? Dinsizlik zülməti, kafirlik, cəhalət və nadanlıq qaranlığı; Bəli, hər hansı bir cəmiyyəti belə bir qaranlıq tutsa, orada xəyanət, cinayət, qan tökmə, adam öldürmə, xurafat və fəsaddan başqa bir şey olmaz. O cəmiyyət ən qorxulu cəmiyyət hesab olunar. Ona görə də gərək elə bir mühitdən Allaha pənah aparasan, ona sığınasan ki, amanda qala biləsən.

وَمِن شَرِّ النَّفَّاثَاتِ فِي الْعُقَدِ

"pənah aparıram Allaha, düyünlərə piləyənlərin şərrindən". Cadugərlər və sehr edənlərin şərrindən. Onların vurduğu ziyan və fəsadlardan Allaha pənah aparıram.

Bu ayədə olan cadugərlərin üç hissəyə bölmək olar.

1. Elə həmin cadugərlər ki, sehr və cadu ilə insanları bədbəxt edirlər.

2. Əxlaq və insanlığın ziddinə proqramlar, seriallar və filimlər göstərənlər. Onlar da bir növ cadugərdirlər. Insanları tilsimləyərək bütün ictimi və fərdi əxlaq normalarından çıxarıb özlərinə tabe edirlər. Həqiqətən bizim zamanımızda ən böyük cadu yuxarda dediklərimizdir. Diqqətlə fikirləşsək görərik


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

ki, onlar bizim əxlaqımızda və həyatımızda neçə-neçə çirkinliklər formalaşdırıblar. İnsan getdikcə inkişaf etməlidir. Amma biz hansı təsirlər altında gələcəyə gedirik. O gələcəkdə bizi hansı bədbəxtçiliklər, hansı qaranlıqlar gözləyir. Biz isə elə bilirik qarşıda işıqlı gələcəyimiz vardır. Bəli, qarşıda işıqlı gələcək var, amma kimlər üçün? Dediyimiz cadugərlər üçün? Yoxsa onların tilsiminə düşənlər üçün? Ya tam başqa bir dəstə üçün ki, onlar nə cadugərlik etmir, nə də cadu və sehrin tilsiminə düşməyiblər. “Onların nə qəmi var nə qorxusu” لا خوف عليهم ولا هم يحزنون

3. İffətsiz qadınlar, Həqiqətən onlar xususən bu zamanda ən böyük cadugərdilər. Cəmiyyətin əsaslı olan təbəqəsi, gənc nəsli öz əxlaqsızlıqları ilə müsəxxər edərək onların üzərində hakimiyyət edirlər. Allah-Təala bizi və bütün gəncləri onların şərrindən qorusun.

ومن شر حاسد اذا حسد

“Həsəd edənlərin həsəd etdiyi vaxtın şərrindən”

Ayə “həsədi” ən pis sifətlərdən hesab edir. Bu xasiyyət insanın daxilində baş qaldıranda heç bir cinayət insan üçün pis görünmür. Qüdrəti catan hər işə əl atır, döğma və yad onun üçün bərabər olur. Hətta öz canına da insanın heyfi gəlmir.

Burada yadıma bir dastan düşdü; Qonşusunun paxıllıqını çəkən bir nəfər hər vasitə ilə istəyir onu ləkələsin, amma bacarmır. Axırda öz qulamına əmr


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

edir ki, çıxaq onun evinin damına. Çıxdıqdan sonra qulamına öz başını kəsməyə əmr edir. Qulam yalvarır ki, ağa sən öz başını kəsdirməklə heç nəyə nail ola bilməzsən. Ağa deyir: nə üçün? Mənim meyyitimi bunun damında görənlər məmurlara xəbər verəcəklər. Məmurlar onu tutub edam edəndə ömrü boyu qazandığı hörmət və abrını itirəcək. Beləcə qulam ağasının başını kəsir. Məmurlar ev sahibini tutur. Ittiham edib edam ağacının altına gətirirlər. Amma asmaq zamanı gələndə qulam gələrək hər şeyi olduğu kimi etiraf edir. Beləliklə Allaha sığınan abırlı və inamlı bir mömin Onun pənahında qorunur.

Bəli, həsəd xəstəliyi belədir. İnsanın öz-özünün qatili edir. Amma möminlər qorunaraq Allahın pənahında hifz olunurlar. Şair şerlərinin birində belə buyurub:

İlahi be həqqi əmiri ərəb
Həsəd əhlinə ver kəmali ədəb.
Həsəd bir bəladır, bəlayi əzim.
Bəla içrə qıl həsudi muqim.

Allah-Təala bu böyük bəladan bizi qoruyub saxlasın. Bizə tofiq versin ki, tamam ömrümüz boyu ona pənah apara bilək. Amin.

**“Fələq” surəsinin xususiyyətləri.**

1- Bu surədə “Fələq” kəlməsi işləndiyinə görə belə adlanır. “Muəvvəzə” də deyilir. Çünki o kəlmədə işlədilib.

2-Məşhurdur ki, bu surə Məkkədə nazil olub.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

**“Fələq” surənin hədəfi.**

Bu surə yeddi dəstədən çəkinməyi təkid edir:

1 - Fasid olan məxluqlardan.

2 - Cəhalət və nadanlığın zülmətindən.

3 - Cadugərlərdən.

4 - İctimaiyyəti qarət etmək istəyənlər ki, fəsad yayırlar.

5 - İffətsiz qadınlardan.

6 - Küfrün qaranlığından.

7 - Gözü dar paxıllardan.

Sonda həsəd barəsində bir neçə hədisə diqqət edək:

İmam Baqir(ə) buyurur: “Alov odunu yeyən kimi həsəd də imanı yeyir”.

İmam Sadiq(ə): “Dinin bəlası həsəddir”.

Həsəd həmişə peyğəmbərlərə mane olan yollardan biri olub. Yer üzündə ilk qətl hadisəsi, Qabilin Habili (Adəm (ə) övladları) öldürməsi həsəd nəticəsində olmuşdur.

İlahi, bu ayədə buyurduğun məxluqatın şərrindən bizləri qoru.

**Sual və tapşırıqlar.**

1. Bu surənin adları nədir? Niyə bu adlarla adlanıb ?

2 Sahir və cadugərlər neçə dəstədirlər ?



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

3 “ما” (ma) kəlməsinin mənası nədir ?

4 “فلق” (Fələq) kəlməsinin mənasını izah edin.

5 Fələq (فلق) surəsinin hədəfini izah edin.

**Üçüncü Dərs**
**“İxlas” surəsi**



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

بسم الله الرحمن الرحيم

قُلْ هُوَ اللَّهُ أَحَدٌ اللَّهُ الصَّمَدُ لَمْ يَلِدْ وَلَمْ يُولَدْ وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ

**“İxlas” (Tovhid) surəsinin kəlmələri.**

“قل” – De.

“هو” – o, (kişi cinsi üçün şəxs əvəzliyi)

“الله” – həqiqi məbud.

“احد - Yeganə, tək, misli olmayan, qeyri mürəkkəb.

“صمد” – hər şeydən ehtiyacsız, bir varlıq ki, hamı ona möhtacdır, əzəli, əbədi.

“لم ”- yox, inkar forması, yoxluq bildirən.

“يلد” – doğur.

“ لم يلد ” – doğmayıbdır.

“لم يولد” – doğulmayıbdır.

“ل” – ötəri, xatirinə.

“له” – onun ücün, ona xatir.

“كفوا – كفو” misli, oxşar, bərabər.

**Hərfi tərcümə**

“De Allah təkdir, Allah ehtiyacsızdır və hamı ona möhtacdır, doğmayıb, doğulmayıb, onun oxşarı və misli yoxdur”.

**“Tovhid ” surəsinin təfsiri.**



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

"قل هو الله احد" "De: ey mənim həbibim, (səndən soruşan bütpərəstlərə və bütün başqa soruşanlara) Allah təkdir onun vücudu vacibi zatidir, bütün eyb və nöqsanlardan pakdır, mürəkkəb deyil, əczası yoxdur, gözlə görünməyib, görünməyəcək, nə dünyada, nə axirətdə, ağıllar onu dərk etməkdə acizdirlər. Mən ibadət etdiyim elə bir Allahdır ki, ona çətinlikdə asanlıqda, quruda, suda, hər bir məkan və zamanda müraciət etsəniz sizə kömək edər".

İmam Baqir (ə) buyurur: bütpərəstlər öz bütlərinə işarə edərək deyirlər: ey Muhəmməd (s)! Bu bizim Allahlarımızdır, səndə öz Allahını bizə göstər tanıyaq. Onların cavabında bu ayə nazil olaraq "Allahı" belə vəsf etdi. Yəni bizim Allahımız sizin bütləriniz kimi, gözə görünən, maddə, mürəkkəb hissələrinə və məkana möhtac olan, kiminsə əli ilə düzəldilən, yonulan və formalaşan deyil. Bizim Allahımız bütün eyiblərdən təmizdir (uzaqdır-red.).

"هو" (huvə) kəlməsindəki "و" (vav) qaiblik zəmiridir. Allah-Təalanın qeybdə olmasına dəlalət edir.

Əli (ə) buyurub: Bədr müharibəsinin gecəsində yuxuda Həzrət Xızrı gördüm. Ondan köməklik istədim. O, mənə bu zikri öyrətdi: "ياهو يامن لاهو الاهو" (Ya hu ya mən lahu illa hu). Bunu Həzrət Peyğəmbər(s)-ə danışdım, buyurdu: Ya Əli, sənə ismi-Əzəm öyrədib.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Əmmar Yasir deyir: Süfeyn müharibəsi vaxdı Əlini bu zikri deyən vaxt gördüm. Soruşanda "ismi-əzəm"-dir deyə cavab verdi.

"الله" kəlməsi ona məxsus olan bir addır. Bütün Cəlal və Cəmal sifətlərini özündə toplamışdır. Allahdan başqa kimsəyə onu ad qoymaq olmaz. "احد" kəlməsinin barəsində çoxlu sözlər vardır. Bəziləri onu "vahid" kəlməsi ilə eyni olduğunu, bəziləri isə fərqli olduğunu deyirlər.

Amma Əli(ə) sözü ilə desək: Allah təkdir, oxşarı yoxdur, onun zati təqsim qəbul etmir (mürəkkəb deyil) nə xaricdə, nə ağılda, və nə də fikirdə.

"اللَّهُ الصَّمَدُ" –Allah-Təala ehtiyacsızdır. Bütün ehtiyaclılar ona möhtacdır. Onun zamana və məkana ehtiyacı yoxdur. Onun məqamı bütün məqamlardan üstündür. Onun əmirləri bütün əmirlərdən artıqdır. Rəhməti sonsuzdur, elmi isə hər şeyi əhatə edir. Heç nə ondan güclü ola bilməz. Məxfi və aşkar olan heç bir varlıq onun nəzərindən yayına bilməz.

"لم يلد " (doğmayıb) Allahın övladı yoxdur. O, bu cür işlərdən pakdır. Bu ayədə Allah-Təala  tayfann batil fikrini rədd edir:

Məsihilər deyir: "İsa Allahın oğludur"

Yəhudilər deyir: "Üzeyir Allahın oğludur"

Müşrik ərəblər isə mələklərin Allahın qızları olduğunu güman edirlər.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Həqiqətən bu ayə neçə illər bu üç millətin əqidəsinə hakim olan batil fikri rədd edərək Allahın övladının olmadığını bəyan edir.

“ولم يولد” Allah-Təala heç kimin övladı deyil. Heç nədən vücuda gəlməyibdir. Bu ayə bu günə qədər davam edən və batil bir əqidə olan “güya Həzrət İsa (ə) Allahdır” əqidəsinə möhkəm bir cavabdır. İsa(ə) insandır. Doğulubdur, amma Allah-Təala cismiyyətdən uzaqdır. İsa(ə) insan surətindədir, Allah isə surət qəbul edən deyil.

İmam Hüseyn(ə) Bəsrə camaatının məktubunun cavabında yazır: “Ondan bir şey xaric olmayıb, nə maddi şeylər, övlad kimi. Nə də lətif şeylər, nəfəs kimi. Yuxu, xəyal, qəm, təbəssüm, ağlamaq, qorxmaq, aclıq və susuzluq Allah-Təaladan baş verməz. O, bu şeylərdən pakdır.”

Nəhayət surənin sonunda uca olan Tanrı öz müqəddəs olan varlığı barədə belə buyurur:

وَلَمْ يَكُن لَّهُ كُفُوًا أَحَدٌ

“Heç bir varlıq onun oxşarı deyil” daha doğrusu o heç bir varlığa oxşamır. Heç nə elmdə, qüdrətdə məqam və mənzələtdə ona bənzəmir. Bu ayə Allahı cism bilənlərə (mücəssəmə), habelə Allahı sifət və zat cəhətindən məxluqa bənzətənlərə (müşəbbihə) gözəl bir cavab verir. Batil fikirlərinizdən əl çəkin! Allah siz fikirləşdiyiniz kimi deyil.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

**“Tovhid” surəsinin hədəfi.**

Bu surə Allahı tanımaq barədə nazil olub. Bu mühüm işdə azanları, həqiqətdən uzaq düşənləri, tənqid edərək, bütpərəstlərə, ulduz və aypərəstlərə, atəşpərəst və üçlüyə (ata, oğul, müqəddəs ruh) qail olanlara, bir sözlə, bu surədə tosif olunan (sifətləri sadalanan-red.) Allahdan başqasına əqidə bağlayanlara və Allaha məxluq sifəti nisbət verənlərə deyir: sizin əqidəniz batildir. Istəyirsizsə düzgün əqidəniz olsun, həqiqi məbuda itaət edəsiniz, o həqiqi məbudun zat və sifəti budur. Bundan başqa əqidə batildir.

**“Tovhid” surəsinin xüsüsiyyətləri.**

1. Bu sürəni evə daxil olanda oxumaq ruzini çoxaldar, fəqirliyi uzaqlaşdırar. Həzrət Peyğəmbər(s) buyurur: “Mən “Səd ibni Məazın” cənazə namazını qılanda 70 min mələk onun namazına dayanmışdılar. Mən Cəbraildən soruşdum: Sədin hansı əməlinə görə siz onun namazında iştirak etdiniz? Dedi: bütün hallarda “Tohid” surəsini oxuduğuna görə”

2. Bu surənin 20-ə yaxın adı var. Ən məşhuru “Tohid”-dir . İkinci “İxlas”-dır. Ona görə ki, kim bu surəni oxuya başa düşə, əqidəsi Allah tanımaq barədə xalis olar.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

3. Bu surə Məkkədə nazil olub. Ona görə "Məkki" deyilir.

4. Bu surə Allahın sifəti barədə sual edənlərin cavabında nazil olubdur.

**Sual və tapşırıqlar**

1. "Tovhid" surəsi hansı mövzudan bəhs edir?
2. Bu surənin neçə adı var? Və məşhurlarını deyin.
3. Məsih və yəhudilərin səhvi nə idi?
4. "Mücəssəmə"-lər və "müşəbbihə"-lər kimlər idi?
5. "Tovhid" surəsindən hansı hədəfləri öyrənirik?
6. "Tovhid" surəsi nə üçün nazil oldu?
7. "Əhəd" (احد) kəlməsini izah edin.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

## Dördüncü Dərs
## “Təbbət” surəsi

**“Təbbət” surəsinin kəlmələri.**

تبت - nabud oldu-qurudu-kəsildi-həlak oldu

يدان –يدا - iki əl - bütün qüdrət, bütün nemət - tamam nüfuz

“ ما”- o şey- o şey ki- nə

اغنى - ehtiyyacsız etdi-xeyir verdi

ه -o, özü. (əvəzlik)

عن - dan,dən (şəkilçi)

عنه - ondan

ماله - onun malı, onun sərvəti və mülkü

كسب - kəsb edibdir, qazanıbdır, ələ keçirib

سوف – سي -tezliklə, tez

يصلى -çəkir-atır

نار - od

ذات –ذا – ذو – ذى - sahib, malik


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

لهب-odun şöləsi, qızarmış, alovlanmış

امرأة- (o) qadın, arvad, həyat yoldaşı, onun arvadı

حمالة- yük daşıyan qadın, sənəti yük daşımaq olan qadın

حطب – odun

حطب حمالة- odun daşıyan qadın, çox söz gəzdirən qadın

في - da,də (şəkilçi)

جيد-boyun

حبل -ip

من -dan, dən (şəkilçi)

مسد-xurma lifi, döyülmüş, bərk

**Hərfi tərcümə.**

“Sınsın Əbu Ləhəbin qüdrəti, kəsiklsin onun iki əli, vurulsun onun səltənəti, var-dövlətindən ona xeyir olmasın, o tezliklə alovlanmış oda daxil olacaq. Həmçinin boynunda odun daşıyan arvadı da onunla birlikdə, onun arvadının boynunda ip var (odun daşımaq üçün)”.

**“Təbbət” sutəsinin təsfiri.**

“Təbbət” surəsi iki hissədən təşkil olmuşdur. Birinci hissəsi (Əbu Ləhəbin) özünün, ikinci hissəsi isə arvadının pisliyi barədədir.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

İlkin dəvət vaxtı Həzrət Peyğəmbər(s) insanları təkallahçılığa dəvət edirdi. Onun birinci düşmənlərindən olan əmisi Əbu Ləhəb Peyğəmbər(s)-in ardınca gəzib onun ayaqlarının arxasını o qədər daşla vurmuşdu ki, qanı axırdı, arvadı isə tikanları yığıb iplə bağlayaraq boynunda gətirib peyğəmbərin yoluna tökürdü ki, ayaqlarına batsın.

Bir gün Peyğəmbər (s) insanları islama dəvət edəndə Əbu Ləhəb Peyğəmbər(s)-i bəzi sözlərlə təhqir etdi. Həmişəki kimi camaatın ona qulaq asmasına mane oldu. Elə həmin vaxt vəhy mələyi nazil olub onun barəsində bu ayələri gətirdi.

تبت يدا ابى لهب و تب

"Kəsilsin Əbu Ləhəbin əlləri, ya ölüm olsun ona".

Qurani-Kərim demək olar ki, çox yerdə ad çəkmədən kimlərinsə pisliyin bəyan edib. Amma burada isə əksinə olaraq Əbu Ləhəbin adını cəkir. Buna da səbəb onun həddindən artıq çirkin mövqeyidir. Hətta, onun adı belə büt bəndəsi (Əbdul uzza, uzza büt adıdır) mənasındadır. Eybəcər sifəti olduğu üçün ləqəbi də " Əbu Ləhəb" idi, yəni, odun şöləsi.

Bəli Quran çox sərt bir mövqedən Əbu Ləhəbi hücuma məruz qoyaraq, onun dünya və axirət xeyratından əlinin üzülməsindən xəbər verir.

Sonra Qurani-Kərim belə buyurur:

"ما اغنا عنه ماله و ما كسب"


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

"Mal dövləti, sərvəti, dünyada nə vardırsa, ona heç bir xeyir verməsin, Allahın əzabından onu qorumasın ".

Həqiqətəndə belə oldu. Əbu Ləhəbin çoxlu var dövləti, çoxlu övladları var idi. Amma Allah-Təala onu xəstəliyə düçar etdi. Bədəni ufunətləndi, heç kim ona yaxın getmək istəmirdi. Tarixin yazdığına görə, meyyitini şəhərdən çıxarıb üstünə böyük bir daş saldılar, qaldı o daşın altında. Beləliklə Quranın böyük möcüzə olması bu hadisə ilə də subut olundu. Yəni, Əbu Ləhəbə edilən nifrin doğruldu.

سيصلى نارا ذات لهب

"Tezliklə alovlanmış bir oda (ocağa) daxil olacaq".

Bəli "Əbu Ləhəb" arxalandığı heç nə, bütlər, var dövlət, övladları kömək edə bilmədi. Nəinki təkcə ona, heç bir kafir və müşrikə bu şeylərin köməyi dəyməz. Qiyamətdə Qurani-Kərimin "Şüəra" surəsinin 88, 89-cu ayələrdə deyildiyi kimi: "Nə var dövlət, nədə ki övladlar fayda verməz. Fayda verən ancaq pak qəlb ilə Allah hüzuruna gəlməkdir" يوم لا ينفع مال و لا بنون الا من اتى الله بقلب سليم Bu ayədəki "od" yəqindir ki, cəhənnəm oduna aiddir. Amma bəzilərinin fikrinçə dunya oduna da aid olur. O, da bir pis xəstəlik idi ki, Əbu Ləhəbə yoluxdu və çox acnacaqlı şəkildə onu öldürdü.

Surənin ikinci hissəsi Əbu Ləhəbin arvadını barəsindədir.

وامراته حمالة الحطب



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Onun arvadı cəhənnəmə daxil olacaq, o, arvad ki, daima çiynində odun daşıyardı.

في جيدها حبل من مسد

“Həmişə boynunda xurma lifi ya ip olardı”.

Əbu Ləhəbin arvadı Əbu Süfyanın bacısı, Müaviyyənin isə bibisi idi. Islamın əleyhinə ərindən də çox çalışırdı. Çöldən tikanları yığıb Peyğəmbər(s) gedən yola tökərdi ki, ayaqlarına batsın. Yeri gəlmişkən, bir gün tikan gətirəndə ip onun boğazına keçdi. Nə qədər çalışdı aça bilmədi və cəhənnəmə daxil oldu.

Bəzilərinin fikrincə o, söz gəzdirən, ya çox paxıl qadın idi.

Bəziləri də deyirlər: o, qadın qiyamətdə çox insanların gunahını çiynində gəzdirəcək. Ona görə Qurani-Kərim bu ibarəti onun haqqında işlədibdir.

Amma bu fikirlərin hamısının olması mümkündür. Yəni o, həm odun daşıyardı, həm söz gəzdirən və paxıl idi, həm də çoxlu insanların cəhənnəmə getməsinə səbəb olmuşdu. Yeri gəlmişkən qeyd etmək yerinə düşər: “söz gəzdirmək” çox böyük günahlardandır. Həzrət “Musa”(ə) bir dəstə insanla yağış istəmək üçün namaz qılmağa çıxmışdılar (istisqa). Dua edirdilər, amma duaları qəbul olmurdu. Həzrət Musa (ə) Allah-Təaladan soruşdu: İlahi, niyə bizim dualarımızı qəbul etmirsən? Cavab gəldi: Ya Musa (ə), sizin dəstədə “söz gəzdirən” bir insan var. Nə vaxta qədər o, sizin içərinizdədirsə sizin duanız


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

qəbul olmayacaq. Həzrət Musa (ə) bu xəbəti onlara çatdırdı. Həmin adam ürəyində çox peşman oldu, tövbə etdi Allah-Təala onun tövbəsini qəbul edib yağış yağdırdı.

Vay olsun söz gəzdirənlərə. Vay osun söz gəzdirən cəmiyyətə, əgər onlar tövbə etməsələr, çirkin əməllərindən əl çəkməsələr, bu zaman onların sonu nə ilə nəticələnəcək? Pənah aparaq Allaha onların şərrindən.

**“Təbbət” surəsinin hədəfi.**

Bu surə Əbu Ləhəb və onun arvadı haqqında nazil olub. Onların islam və Peyğəmbər(s)-in qarşısında böyük bir səd olduğunu bəyan edir. Bu işlərin əvəzində Allahdan onlara gələn bəlanın barəsində xəbər verir. Bu iki hədəfin bütün dünya və axirət çirkinliklərin insanlara elan edir. Bildirir ki, hər kim Allaha qarşı hansı mövqedə olsa, Allah da onu eləcə mükafatlandırar.

**“Təbbət” surəsinin xüsusiyyətləri.**

1. Bu surənin oxumağın fəziləti: Kim bu surəni oxusa Allah-Təala onu Əbu Ləhəblə bir yerə toplamaz. Yəni o, behişt əhli olar, Əbu Ləhəb isə cəhənnəm əhlidir.

2. Bu surə məkkədə nazil olubdur.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

3. Bu surə Əbu Ləhəbin və arvadının başına gələnləri əvvəlcədən xəbər verməklə, özünün möcüzə olmağını bir daha təsdiqləyir.

4. Bu surədən məlum olur ki, insan sülbi (qomumluq – red.) cəhətdən yaxın olsa da belə əqidə onun uzaqlaşdıraraq özgələşdirir.

5. Bu surə “Əbu Ləhəb”, “Məsəd” və “Təbbət” adlanır. Ona görə ki, bu sözlər onda işlənib.

İlahi, bizləri “Əbu Ləhəb” kimi insanlardan uzaq et.

**Sual və tapşırıqlar.**

1. Bu surə harada nazil olub?
2. Əbu Ləhəb kimdi?
3. “Həmmalət hətəb” kim idi?
4. “Təbbət” surəsi nə vaxt nə üçün nazil olub?
5. Əbu Ləhəbin arvadı necə oldu?
6. “Təbbətin” mənasını izah edin.
7. Bu surənin adlarını və onun adlanma səbəbini yazın.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

# Beşinci Dərs
## “Nəsr” surəsi

بسم الله الرحمن الرحيم

إِذَا جَاء نَصْرُ اللَّهِ وَالْفَتْحُ    وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا

فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ إِنَّهُ كَانَ تَوَّابًا

**“Nəsr” surəsinin kəlmələri.**

اذا - o, o zaman, o vaxt, o zaman ki,

جاء - gəldi.

نَصْرُ اللَّهِ - Allahın köməyi.

فتح - qələbə-genişlik- düşməni fəth etmək.

وَرَأَيْتَ - gördün.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

ناس - camaat.

يَدْخُلُونَ - daxil olarlar.

فِى - da-də (şəkilçi).

أَفْوَاجًا – dəstələr.

ف- sonra (bağlayıcı).

فَسَبِّحْ - təsbeh de (zikr et)- sübhanəllah de.

ب- ın-in (şəkilçi).

بِحَمْدِ - şükür sənə.

رب - yaradan- sahib- malik- tərbiyə edən.

ك- sən (əvəzlik) .

وَاسْتَغْفِرْ- bağışlanmaq tələb et.

هُ - o, (əvəzlik).

ان - həqiqətən.

انه - həqiqətən o.

كان - var, olub (malikiyyət).

تَوَّابًا - çox tövbə edən- çox tövbə qəbul edən.

**“Nəsr” surəsinin hərfi tərcüməsi.**

“o, vaxt ki, Allahın köməyi sənə üz gətirər, o, vaxt ki, böyük qələbəyə nail oldun, gördün ki, camaat dəstə-dəstə Allahın dinini qəbul edirlər, onda təsbeh de, Allahına şükr et, və ondan bağışlanmaq istə, həqiqətən sənin Allahın çox tövbə qəbul edəndir”.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

## “Nəsr” surəsinin təsfiri.

إِذَا جَاء نَصْرُ اللَّهِ وَالْفَتْحُ

Allah-Təala bu surədə Həzrət Peyğəmbər (s)-ə müjdə ünvanında xəbərlər verir; Ey mənim əziz peyğəmbərim, tezliklə qələbəyə nail olacaqsan, fateh olacaqsan. Tez bir zamanda arzuna çatacaqsan, tezliklə əziz vətənini fəth edərək doğma yerlərini görəcəksən.

وَرَأَيْتَ النَّاسَ يَدْخُلُونَ فِي دِينِ اللَّهِ أَفْوَاجًا

“camaatı dəstə-dəstə Allah dininə daxil olan görəcəksən”. O, gün böyük gün olacaq. Görəcəksən ki, insanlar dəstə-dəstə sənin yanına gələrək beyət əllərini sənə uzadacaqlar. Tovhid dinini qəbul edib, müsəlman olacaqlar.

فَسَبِّحْ بِحَمْدِ رَبِّكَ وَاسْتَغْفِرْهُ

“Allahına təsbeh de, zikr et, ondan bağışlanmaq tələb et”.

Bu xəbər verilən qələbə böyük bir qələbə idi. Allahın lütfü və çox qiymətli nemətlərindən idi. Ona görə də Allah-Təala Peyğəmbər (s)-ə zikr etməyi, istiğfar etməyi tövsiyyə etdir. Buyururdu: sən belə et ki, qoy sənə tabe olub insanlara Allah qarşısında sənin rəftarını görüb səndən əxlaq və insaniyyət dərsi öyrənsinlər.

Bu tövsiyyə bəlkə də ondan ötrü idi ki, qoy biz insanlar bu qələbənin adi bir iş olmadığını başa düşək.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Bilək ki, bu ilahi olan böyük bir nemətdir və gərək biz də həm onun şükrünü yerinə yetirək, həm də qədrini bilək, bu qələbəni - böyük neməti qoruyub saxlayaq.

إِنَّهُ كَانَ تَوَّابًا

“O, çox tövbə qəbul edəndir”. Allah-Təala surənin bu hissəsində Peyğəmbər (s)-ə istifğar etməyi tövsiyyə edib və ardınca buyurur: “Allah çox tövbə qəbul edəndir” “Tövbə” sözünün mənası “qayıtmaq” deməkdir. Allahın qayıtması (tövbəsi) rəhmətinin kimə tərəfsə gəlməsi mənasındadır. Bəndə günah edəndə Allah rəhmətini ondan döndərir. O, tövbə edən zaman yenidən Allah-Təala rəhmətini ona tərəf yönəldir. Rəhmətini ona qaytarır. Günahkar olmayan bəndə əgər ibadətini çoxaldırsa Allahın rəhməti daha çox ona nazil olub. Peyğəmbər (s) məsum idi. Istiğfar etməklə Allah yanında daha yüksəlir, məqamı böyüyürdü.

Bu ayə ümumi insanlar üçündə bir mesajdır. Yəni: ey günahkarlar, Allahın rəhmətindən məyus olmayın. O, tövbələri qəbul edəndir. Onun rəhmətinə ümidinizi artırın və onun yoluna qayıdın.

**“Nəsr” surəsinin hədəfi və bu surədə vurğulanan məqamlar.**

1. Bu surədə müxtəlif məqamlar vurğulanır. Onlardan biri də əvvəlcədən Məkkənin fəthindən xəbər vermək idi.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Təqribən bir ildən sonra Məkkə fəth olundu və müsəlmanlar böyük qələbəyə çatdılar.

2. Bu surədə Allah-Təala öz peyğəmbərinə təsbeh, şükr etmək əmrini verir. Bu əmrdən belə aydın olur ki, insan gərək Allahın bütün nemətlərinin müqabilində şükr etsin və yaxşı əməllər ələ gətirsin.

3. Bu surə Allah-Təalanın çox mehriban və tövbə qəbul edən bir varlıq kimi göstərir, bununla da bədbəxtçiliyin əsasını təşkil edən ümidsizliyə son qoyur.

4. Bu surədən Peyğəmbər (s)-in ömrünün sonu olduğu da məlum olur. Abbas (Peyğəmbər (s)-in əmisi) dedi: Bu surədən Peyğəmbərin ömrünün sonu olduğunu hiss edirəm. Elə bil Allah-Təala bu sözlərlə Peyğəmbər (s)-ə hazırlıq göstərişini verir. Bu sözü Peyğəmbər (s)-ə dedilər. Həzrət buyurdu: Əhsən əmimin elminə və düşüncəsinə. Buna görə də bu surəni "Tovdii" (vida) surəsi də adlandırıblar.

**"Nəsr" surəsinin xüsusiyyətləri.**

1. Bu surənin fəziləti barədə Həzrət Peyğəmbər (s) buyurub:

مَنْ قَرءَها فَكَأَنَّما شَهِد مَعَ رَسُولِ اللهِ(ص) فَتْحَ مَكَّة

"Kim bu surəni oxusa, elə bilsin ki, Məkkənin fəthində Peyğəmbər (s) ilə birlikdə olub".

İmam Sadiq (ə) buyurub: "Kim bu surəni vacib ya müstəhəb namazında oxusa, Allah-Təala onu bütün


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

düşmənlərinə qalib edər. Qiyamətdə əlində cəhənnəmdən bəraət məktubu olar".

2. İslamda çox qələbələr olub. Amma bu qələbə hamısından fərqlidir. Bəzi ərəblər deyirlər: əgər Peyğəmbər (s) Məkkəni fəth etsə onda o, həqiqətən Allahın rəsuludur. Buna görə də, bu qələbədən sonra müşriklər dəstə-dəstə islamı qəbul etdilər.

3. Bu surəni "Nəsr", "Fəth" və "Tovdii" adlandırıblar. "Nəsr" və "Fəth" kəlmələri bu surədə işləndiyinə görə ona bu adları veriblər. Amma surənin zahirindən Peyğəmbər (s)-in ömrünün sonu olması məlum olduğuna görə ona "Tovdii" (vidalaşma) surəsi deyiblər.

4. Bu surə mədinədə nazil olub. Bəzilərinin fikrinə əsasən, bu surə Həzrət Peyğəmbər (s)-ə Hüdeybiyyə Sülhündən sonra, Məkkənin fəthindən iki il qabaq, hicrətin 6-cı ilində nazil olubdur.

**Suallar və tapşırıqlar.**

1. Bu surənin adları hansılardır?
2. Bu adları nə üçün bu surəyə veriblər?
3. "Nəsr" surəsi nə vaxt və hansı mövzuda nazil olub?
4. Bu surənin nazil olması ilə qələbənin baş verməsi arasında nə qədər vaxt keçdi?


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

5. Bu surədə vurğulanan məqanlar hansılardır?

6. “Təvvab”(تواب ) sözünün mənası nədir?

7. “Təvvab” sözü Allaha nisbət veriləndə mənası necə olur?

## Altıncı Dərs
## “Kafirun” surəsi

بسم الله الرحمن الرحيم

قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ لَا أَعْبُدُ مَا تَعْبُدُونَ وَلَا أَنتُمْ عَابِدُونَ مَا أَعْبُدُ وَلَا أَنَا
عَابِدٌ مَّا عَبَدتُّمْ وَلَا أَنتُمْ عَابِدُونَ مَا أَعْبُدُ لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

**“Kafirun” surəsinin kəlmələri.**

قل- de

يا- ey (nida)

ايها- ey onlar

الْكَافِرُونَ- kafirlər - həqqin üstünü örtənlər - inkar edənlər

لا- yox (inkar).

اعبد- sitayiş edirəm- ibadət edirəm

لاأعبد- sitayiş etmirəm

ما- o, şey ki,

تَعْبُدُونَ –sitayiş edirsiz

أَنتُمْ - siz

عَابِدُونَ - sitayiş edənlər

انا - mən

لِ – لَ- üçün – ona xatir

أَنتُمْ - siz (kişi cinsinə aid əvəzlik)

لَكُمْ- sizin üçün

دين - din

دِينكُم - sizin dininiz

و - və (bağlayıcı)

ل - xatir, üçün.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

لِ - mənim üçün, mənə xatir.

**“Kafirun” surəsinin hərfi tərcüməsi.**

“De: Ey kafirlər, mən heç vaxt sizin bütlərə bəndəçilik etməyəcəyəm, siz də mənim pərəstiş və bəndəçilik etdiyim Allaha bəndəçilik etməyəcəksiz, mən də sizin bəndəçilik etdiyinizə bəndəlik etməyəcəm, siz də mən pərəstiş etdiyimə ibadət etməyəcəksiz, sizin dininiz sizin üçün olsun, mənim dinim mənim üçün”.

**“Kafirun” surəsinin təfsiri.**

Bu surə Vəlid ibn Müğeyrə, As ibn Vail, Haris ibn Teye, Üməyyə ibn Xələf kimi bir dəstə Qureyş müşriklərinin başçıları barədə nazil olub. Onlar deyirdilər: Ey Muhəmməd (s), gəl bir il sən bizim dinimizə itaət et, bir il də biz sənin dininə itaət edək və səni öz imtiyazlarımızda şərik edərik. Əgər sənin dinin yaxşı olsa biz ondan mənfəətlənərik. Bizim dinimiz yaxşı olsa, sən onda bəhrələnərsən.

Həzrət onların cavabında buyurdu: “Allaha pənah aparıram ona şərik qoşmaqdan”.

Onlar dedilər: Heç olmasa bizim bütlərin əlini vur və təbərrik et. Bizdə səni təsdiq edərik və Allahına ibadət edərik.

Həzrət Peyğəmbər (s) buyurdu: “Mən Allahımın əmrini gözləyirəm”.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Elə bu zaman "Kafirun" surəsi nazil oldu. Həzrət Peyğəmbər (s) Məscidül Hərama gedib müşriklərin başı üstə dayanıb bu surəni axıra qədər oxudu. Onlar bu ayələri eşitdikdən sonra tam surətdə məyus oldular və Peyğəmbər (s)-i və onun dostlarını incitməyə başladılar.

قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ

De "Ey kafirlər",

لَا أَعْبُدُ مَا تَعْبُدُونَ

Siz ibadət etdiyinizə mən ibadət etməyəcəyəm.

وَلَا أَنتُمْ عَابِدُونَ مَا أَعْبُدُ

Siz də mən ibadət edən Allaha ibadət etməyəcəksiniz.

Bu ayə ilə Həzrət müşriklər ilə öz arasında ayrılıq xəttini çəkir. Onlara elan edir ki, bir dəfəlik bu fikri başınızdan çıxarın, mən bütpərəstlik etməyəcəyəm. Sizdə heç vaxt bu inad ilə Allaha ibadət edən deyilsiz. Keçmişinizin pisliyindən əl çəkən deyilsiz. Onları kor-koranə təqlid etməyinizə davam edəcəksiniz. Bütpərəstlərdən sizə gələn haram qazancları, Allahpərəstliyin ixlas kölgəsi ilə əvəz etmək fikrində deyilsiz.

Yenə də müşrikləri məyus etməkdən ötəri, onlara bu məsələdə heç bir sazişə getməməyi bildirmək üçün nəhayət Allahpərəstliklə bütpərəstliyin heç bir vəchlə uyğunlaşmayacağını elan edərək buyurdu:

وَلَا أَنَا عَابِدٌ مَّا عَبَدتُّمْ



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

"mən də heç zaman bütlərə ibadət etmərəm".

Sözün davamında kafirlərin yalançı olduğunu elan edir. Onlar deyirdilər: bir il sən bizim kimi ibadət et, bir il də biz sənin Allahına bəndəçilik edərik. Onların "sənin Allahına ibadət edərik" sözlərinin yalan olmasını və bu sözdə də qeyri səmimi olduqları və hiyləgərlik etdiklərini yaxşı bilən Allah-Təala Həzrət Peyğəmbər (s)-ə buyurur ki, onlara belə desin:

وَلَا أَنتُمْ عَابِدُونَ مَا أَعْبُدُ

"Siz də mənim Allahıma ibadət edən deyilsiz." Yəni bu dediklərinizin hamısı yalan və hiylədir. Istəyirsiniz mən sizin bütlərə ibadət edəm, sonra bunu əlinizdə bayraq edib, mənim də bütpərəst olmağımı və sizin kimi olduğumu hamıya çatdırasız.

Belə olan halda:

لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ

"Sizin dininiz sizin üçün, mənim dinim isə mənim üçün olsun." Bu ayədə Allah-Təala Peyğəmbər (s)-ə buyurur ki, onlara de: Çox gülməli və pis bir şey fikirləşmisiz. Sizin öz təfəkkürünüzə görə dininiz vardır, mənim Allahım da mənə bu dini göndəribdir. Sizin dininiz şirk və bütpərəstlik, mənim dinim isə tovhid və təkallahlı dindir. Sizin dininiz xurafat və cəhalət, mənim dinim isə həqiqət bə fəzilət dinidir. Bu iki dinin arasında qədimdən ziddiyyət mövcuddur. Bunlar bir-birinin əleyhinə olan dinlərdir. Bunların



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

hər ikisini rəsmiyyətlə tanımaq olmaz. Ikisinidə eyni baxışla qəbul etmək olmaz. Mənim dinim ədalət, sizinki isə zülm dinidir.

**“Kafirun” surəsinin hədəfi.**

1. Kafirlərin Peyğəmbər (s)-ə etdikləri bu təklif yalan və hiylədən başqa heç bir şey deyildi. Onlar bu sözlərində heç bir səmimiyyətə malik deyildilər. Yuxarıda dediyimiz kimi çirkin niyyətlərini həyata keçirmək istəyirdilər.

2. Bu surənin hədəflərindən biri də bu idi ki, islam və həqiqət dininin müşriklik ilə heç vaxt bir araya gəlməməsini elan edərək, Peyğəmbər (s) kimi şəxsiyyətin çirkin əməllər etməsinin qeyri-mümkün olduğunu bütün insanlara çatdırırdı.

**“Kafirun” surəsinin xüsusiyyətləri və onda olan məqamlar.**

1. Bu surə “Kafirun” ona görə adlanıb ki, bu kəlmə bu surədə işlədilib. Bu surə “Cəhd” adı ilə də tanınıb. “Cəhd” inkar etməyə deyərlər. Bu surə kafirlərin təklifini inkar etdiyinə görə belə adlanıb.

2. Bu surə hicrətdən qabaq Məkkədə nazil olub.

3. Bu surəni oxumağın fəziləti barədə Həzrət Peyğəmbər (s) buyurub:

من قرأ «قُلْ يَا أَيُّهَا الْكَافِرُونَ» فكأنما قرأ ربع القرآن و تباعد عنه مردة الشياطين و برأ من الشرك و يعافي من فزع الأكبر



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

“Hər kəs bu surəni oxusa elə bil Quranın dörddə bir hissəsini oxuyub. Tuğyankar şeytanlar ondan uzaq olar, şirkdən təmizlənər və qiyamət gününün çətinliyindən amanda qalar”.

Həzrət buyurur: “yatanda bu surəni oxuyun bu sizi şirkdən qoruyar”.

4. Bu surədə belə vurğulanır ki, heç bir müsəlmanın dinini sazişə qoyub al-ver edib, onu nəyə isə satmaq və əvəzində bir şey almaq haqqı yoxdur. Ümumuyyətlə dini heç nə ilə əzəz etmək olmaz. Din axirət aləmini təmizləyir. Onu atan axirətdə heç bir məqama çata bilməz. Ona qörə də müvəqqəti dünyaya görə axirəti əldən vermək olmaz. Peyğəmbər (s) buyurur: “Bədbəxt adamdır axirəti dünyaya satan, ondan da bədbəxti axirəti başqasının dünyasına satandır”.

5. Bu surədə bir neçə söz təkrar olunubdur. Bu təkrar olunma nə üçündür? Ümumiyyitlə Allahın kəlamında təkrarlanma o kəlamı fəsahətdən salmırmı? Rəvayətdə gəlib ki, materialist olan (zindiq) Əbu Şakir Veysanı İmam Sadiq (ə)-ın dostlarından olan “Əbu Cəfər Əhvəl”-dən (Muhəmməd ibni Əli Nomani Kufi, Mömin-i-Taq) soruşdu: bu surədəki təkrar nəyə lazım idi? Həkimin (Allah-Təala hikmət sahibidir, yəni hər bir bihudəçilik Ondan uzaqdır, O, hər bir işi müəyyən bir səbəb və məqsədə görə edir – red.) sözündə belə bir təkrarın olması nə üçündür? O, cavab verə bilmədi. Bir gün Mədinəyə



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

gəlib onu İmam Sadiq (ə)-dan soruşanda, İmam belə cavab verdi: “Müşriklər dedilər: bir il sən bizim Allahlara, bir il biz sənin Allahına, o biri il sən bizim Allahlarımıza, sonrakı il isə (dördüncü il) biz sənin Allahına ibadət edək. Allah-Təala da, onlar neçə dəfə demişdi o, qədər cavab verdi”.

“Əbu Cəfər Əhvəl” bunu “Əbu Şakirə” deyəndə “Əbu Şakir” dedi: “bu cavabi dəvələr hicazdan (mədinə) gətirib. Yəni bu İmam Sadiq (ə)-ın cavabıdır”.

6. Belə bir sual oluna bilər: surədəki لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ (sizin dininiz sizin üçün, mənim dinim mənim üçün) ayəsi “bütpərəstliyi” rəsmi bir din kimi qələmə vermirmi?

Belə cavab vermək olar ki, Xeyr. Çünki, ayələrdən aydın olur ki, Quran onları məzəmmət edir və deyir: sizin dininiz başınıza dəysin, bunun pis aqibətini tezliklə görəcəksiniz. Buna Quranın yüzlərlə ayəsi dəlalət edir. O, ayələr ki, şirki haram bilərək müşrikliyi qadağan edir. Ondan mənfur bir şey tanımır.

Bundan əlavə din “Cəza” mənasındadır. Yəni siz öz cəzanızı çəkin, biz də öz cəzamızı (“cəza” kəlməsinin bir mənası da əməllərin qarşılığı deməkdir və mənfi mənada işlənməklə yanaşı müsbət mənada da işlənə bilər – red.), əqidəmizə uyğun cəzamızı çəkəcəyik.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Allah-Təala bizi şirkdən, fikri şirk, və əməli şirkdən qorusun. Amin, ya Rəbbəl aləmin.

**Sual və tapşırıqlar.**

1. Bu surənin adlarını və onun adlanma səbəblərini deyin.
2. Bu surə nə üçün və hansı mövzuda nazil olub?
3. Peyğəmbər (s) kafirlərlə nə üçün saziş etmədi?
4. Bu surənin fəziləti haqda nə deyə bilərsiniz?
5. Bu surədəki təkrarlanmanı izah edin.
6. لَكُمْ دِينُكُمْ وَلِيَ دِينِ ayəsini izah edin.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

## Yeddinci Dərs
## “Kövsər” surəsi

بسم الله الرحمن الرحيم

إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ

**“Kövsər” surəsinin kəlmələri.**

انا – "ان– نا " - həqiqətən biz

اعطينا - əta etdik – bağışladıq

ک– ت - sən (kişi əvəzliyi)

اعطيناک - sənə bağışladıq – sənə əta etdik

كَوْثَرَ- behiştdə su çeşməsi, çoxlu övlad, tükənməz elm, bollu xeyr və bərəkət

فَ- sonra

صَلِّ - namaz qıl, dua et

لِرَبِّكَ - Allaha xatir

و- və (bağlayıcı)

وَانْحَرْ - dəvə kəs, dəvə qurban et



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

إِنَّ - həqiqətən

شَانِئَكَ - sənin düşmənin

هُوَ - o, (kişi cinsinə aid əvəzlik)

الْأَبْتَرُ - quyruğu kəsik – nəsilsiz – sonsuz – nasiq – faydasız

**Hərfi tərcümə.**

"Biz sənə kövsər (bollu xeyir və bərəkət) əta etdik (bağışladıq), belə olan halda Allahın üçün namaz qıl və qurbanlıq et, həqiqətən sənin düşmənin sonsuzdur".

**"Kövsər" surəsinin təfsiri.**

إِنَّا أَعْطَيْنَاكَ الْكَوْثَرَ

Peyğəmbər (s)-in oğlan uşağı olmadığından müşriklər onu "sonsuz" adlandırırdılar. Onun dinində davamsız olduğunu güman edirdilər. Ona deyirdilər: sənin oğlun olmadığına görə sənin davamçın da olmayacaq. Dinin naqis qalacaq, heç bir həqəfinə çatmayacaqsan. Bunların cavabında Allah-Təala bu surəni göndərərək, həmişəki kimi kafirlərin ağzına möhkəm bir şillə vurur. "Ey mənim əziz peyğəmbərim, biz sənə "kövsər əta etdik (bağışladıq)" sən onların sözündən narahat olma, onlar səhv edirlər, sənin gələcəyindən xəbərdar deyillər. Sənin məqamını və şəxsiyyətinin böyüklüyünü başa düşmürlər. Biz sənə bol nemətlər vermişik. Sənin bəşərin çata


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

bilməyəcəyi ən yüksək olan "nübuvət" və "risalət" məqamına çatdirmişiq. Sən insanların rəhbəri və imamısan. Biz sənə Quran kimi bir kitab göndərmişik. Bütün alimlər onun qarşısında baş əyir. Onun möcüzəsi hamını heyranlıqda qoyub. Bütün elm xəzinələri ondadır. Əxlaqi və hüquqi qanunların hamısını o kitab özündə toplayıbdır. Həmişəlik möcüzədir. Sənin dinin bəşəriyyətin hər iki dünyasını səadətə çatdırır. Sənə behişt çeşmələrindən olan "Kövsər" əta etmişik. Nəslini davam etdirmək üçün "Kövsər"i (Həzrət Fatiməni) sənə vermişik.

"Fəxri Razi" öz təfsirində yazır: Bu surə Peyğəmbər (s)-i sonsuz bilənlərin cavabında nazil olub. Görün Allah-Təala Peyğəmbər (s)-ə elə bir nəsil qismət etdi (Fatimədən(s)) ki, bütün zaman boyu yaşayırlar. Əhli Beyt nə qədər şəhid verdi, nə qədər qaçqın və didərgin oldu, amma dünyanın hansı tərəfinə baxırsan həzrətin övladlarıdır. Amma onların düşməni olan bəni Üməyyədən ya bir nəfərdə olsun qalmayıb, ya da ki, heç yerdə tanınmırlar. Baxın nə qədər Əhli Beyt nəslindən alimlər vardır: Baqir, Sadiq, Rza və Nəfsi Zəkiyyə (Muhəmməd ibni Əbdullah ibni Həsən(ə) - İmam Həsən(ə) nəvəsi)."

Surənin davamında Allah-Təala buyurur:

فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ

"Sənə verdiyimiz bu nemətlərin müqabilində namaz qıl, zikr et, qurbanlıq elə". Fəqirlərə, yoxsullara, əlacsızlara, əl tut, onların köməyinə çat.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

“Nəhr” (نحر) dəvənin kəsilməsinə deyərlər. Dəvə kəsmək qurbanlar içərisində ən bahalısıdır. Hər kəs bunu edə bilmir. Ona görə Allah-Təala Peyğəmbər (s)-ə dəvə qurban etməyi tövsiyyə edir ki, bol bir qurban olsun, gözə gəlimli olsun. Kafirlərin bütləri qarşısında kəsdiklərindən də artıq olsun. Dəvə kəsməklə onların yalançı fikirləri (bütdən başqasına qurban olmaz) boşa çıxsın.

إِنَّ شَانِئَكَ هُوَ الْأَبْتَرُ

“Həqiqətən sənin düşmənlərin sonsuzdurlar”. “ابتر” (əbtər) quyruğu kəsik heyvana deyərlər. Ərəblər bu kəlməni sonsuz adamda təhqir ünvanında işlədərdilər. Göründüyü kimi onlar düşmənçiliklərində heç bir ədəb qaydasına riayət etməyiblər. Peyğəmbər (s) kimi şəxsiyyətin barəsində hansı ifadəni işlədiblər. Buna görə də Allah-Təala həmin kəlməni onların barəsində işlədib və onların özünü sonsuz adlandırır.

Peyğəmbər (s)-ə təskinlik verərək buyurur: Ey mənim həbibim! Sən narahat olma, bunların dedikləri sənin ruhiyyəndə təsir qoymasın, onlar özləri “əbtər”-dirlər. Onların nə övladları, nə də ki, var dövlətləri heç bir fayda verməyəcək.

Sən övladların dünya yaşadıqca yaşayacaq. Dinin əbədi bir din olaraq hökm edəcək, və hər bir evə daxil olacaq. Amma sənin düşmənlərinin arzuları ürəylərində qalacaq.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

**“Kövsər” surəsinin hədəfi.**

1. Həzrət Peyğəmbər (s)-in övladları dünyalarını dəyişəndən sonra düşmənlər buna sevinir və Həzrətə bəzi işləri nisbət verirdilər. Ona “sonsuz” deyirdilər. Bu surə də onların cavablarında buyurdu: Ya Peyğəmbər (s), biz sənə “Kövsər” əta etdik.

2. Bu surə bu qədər kiçik olsa da belə siyasi, ədəbi, əxlaqi məsələləri ehtiva etməklə yanaşı gələcəkdə olacaq beş hadisədən xəbər verir ki, xülasəsi bunlardır.

2.1 Peyğəmbərin övladlarının çoxluğu

2.2 Onun ardıyca gedənlərin (iman gətirənlərin) çoxluğu

2.3 Tovhid dininin genişlənib daimi olması

2.4 Peyğəmbərin düşmənlərinin nəsilsiz və sonsuz olması

2.5 Düşmənlərin fikirlərinin, əqidələrinin, fəaliyyətlərinin nəticəsiz qalması.

**“Kövsər” surəsinin xüsusiyyətləri.**

1. Kim bu surəni oxusa Allah-Təala ona behişt arxlarından su içirdər. (Həzrət Peyğəmbər (s))

2. Bu surənin adı surədə olan birinci kəlmədən qoyulub.

3. Bu surə Məkkədə nazil olub.

4. Bu surədəki, “Kövsər” kəlməsinin bir mənası da “Həzrət Fatimə (s)-ya işarədir”.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

İlahi Həzrət Fatimən (s)-nın ziyarət və şəfaətini bizə qismət et. Amin.

**Sual və tapşırıqlar.**

1. "Kövsər" nədir?
2. "Əbtər" nədir?
3. Bu surədən alınan bir hədəfi deyin.
4. Bu surənin nuzul (nazil olma – red.) səbəbi nədir?
5. Bu surənin bir ayəsini təfsir edin.
6. "Kövsər" surəsi neçə gələcək hadisədən xəbər verir?

## Səkkizinci dərs
## "Maun" surəsi

بسم الله الرحمن الرحيم

أَرَأَيْتَ الَّذِي يُكَذِّبُ بِالدِّينِ   فَذَلِكَ الَّذِي يَدُعُّ الْيَتِيمَ   وَلَا يَحُضُّ عَلَى طَعَامِ الْمِسْكِينِ   فَوَيْلٌ لِّلْمُصَلِّينَ

الَّذِينَ هُمْ عَن صَلَاتِهِمْ سَاهُونَ   الَّذِينَ هُمْ يُرَاؤُونَ   وَيَمْنَعُونَ الْمَاعُونَ

**"Maun" surəsinin kəlmələri.**

أَ- Aya (sual sözü) – mi[4] (sual şəkilçisi)

رَأَيْتَ- gördün

الَّذِي - o kəslər ki,

يُكَذِّبُ - yalan nisbət verirlər, - inkar edirlər



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

بِ- nı[4] (şəkilçi)

دِّين- din – həqq din

بالدِّينِ - dini

فَ- sonra (bağlayıcı)

ذَلِكَ- o, (işarə)

يَدُعُّ - tərk edir – zülm edir – özündən üzaqlaşdırır

الْيَتِيمَ - atasız – başsız

لَا يَحُضُّ- vadar etmir – təşviq etmir

عَلَى- na[2] (şəkilçi)

طَعَامِ - yemək – xörək

الْمِسْكِينِ - miskin – ac – binəva – çarəsiz

فَ- sonra (bağlayıcı)

وَيْلٌ- vay – pislik – həlakət – cəhənnəmdə quyu adıdır

مُصَلِّينَ - namaz qılanlar

الَّذِينَ - onlar ki, - o cür insanlar ki,

هُمْ - onlar (kişi cinsi)

عَن - dan[2]

صَلَاتِ- dua – namaz

سَاهُونَ - qafillər – səhv edənlər – yaddan çıxaranlar – süstlük edənlər

يُرَاؤُونَ - riya edənlər – özlərini göstərənlər



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

يَمْنَعُونَ- mane olanlar

مَاعُونَ- zəkat – məişətdə zəruri olan – mal – sərvət

**Hərfi tərcümə.**

“Qiyamət gününü daim inkar edən kəsləri gördünmü? o, yetimi kobudluqla qovan adamdır, başqalarını yetimlərə yemək verməyə təşviq etmir, vay olsun o, namaz qılanlara ki, namazda səhlənkarlıq edirlər (yaddan çıxardırlar – yüngül sayırlar), onlar ki, riya edirlər, başqalarını da həyatda zəruri olan şeylərdən məhrum edirlər”.

**“Maun” surəsinin təfsiri.**

Bu surə əvvəldə Peyğəmbər(s)-i müxatəb tutaraq qiyaməti inkar edənlərin barəsində danışır:

أَرَأَيْتَ الَّذِي يُكَذِّبُ بِالدِّينِ

“Qiyamət gününü inkar edənləri gördünmü?”

“Din” bu ayədə “cəza” günü mənasındadır insanlar o günü inkar etsə həyatda çoxlu piskiklərə düçar olar. Bu sualın ardınca gözləmədən davam edir:

فَذَلِكَ الَّذِي يَدُعُّ الْيَتِيمَ

“Bu həmin adamdır ki, yetimləri kobudluqla öz yanlarından qovurlar”.

Kafirlərin pis əlamətlərindən biri də, onlarda mərhəmətin, rəhmin olmamasıdır. Görürsən onlar



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

hətta öz siniflərindən olan yetim insanlara belə məhəbbət etmirlər, onları qovub kənarlasdırırlar. Hətta onlarda insani keyfiyyət belə yoxdur ki, bir insan kimi çarəsizlərə kömək etsinlər.

Əlbəttə qiyamət gününü inkar edən adamlar belə də olmalıdırlar. Qiyamətə inanmağın insan həyatında çoxlu müsbət təsirləri vardır. Bu inanc insanın dünya həyatındakı çox əməllərini islah edir. Amma axirətə inanc olmayanda mənfi təsirlər özünü göstərir. Nəticədə insan vəhşiləşir, ürəyi daşa çevrilir və bütün insani keyfiyyətləri itirir.

Və kafirlərin ikinci nişanəsi olan:

وَلَا يَحُضُّ عَلَى طَعَامِ الْمِسْكِينِ

"Onlar aclara yemək verməyə başqalarını təşviq etməzlər". Özlərinin bu işi etməməkləri bir yana başqalarınında bu əməlləri etməsinə mane olurlar.

فَوَيْلٌ لِّلْمُصَلِّينَ

"Vay olsun namaz qılanlara". Vay olsun bu müsəlmanlara ki, onlar namaz qılırlar, amma kafir sifətindədirlər. Bunlar yuxarıda deyilən kafirlərdən də pisdirlər. Çünki bunların pis əməlləri hamısı islamın adına yazılır. Bütün namaz qılanların adına ləkə olur.

Sonra bütün namaz qılanların sifətlərini sayır.

الَّذِينَ هُمْ عَن صَلَاتِهِمْ سَاهُونَ



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

“onlar ki, namazı yaddan çıxarırlar, səhlənkarlıq edirlər, onu yüngül sayırlar”.

Bu cür namaz qılanlar namaza çox əhəmiyyət vermirlər – namazı yarımçıq əmələ gətirirlər. Bəzən də onu unudurlar. Başqa cəhətdən baxanda namazın fəlsəfəsindən, mənəvi təsirindən xəbərdar deyillər. Namaz onların ruhunda heç-cürə yaxsı təsir qoymur. Onları kamilliyə tərəf aparmır. Çünki onlar namazı xuşu və xuzu ilə qılmırlar.

Doqquzuncu mərhələdə Allah-Təala onların ən pis əməllərindən birinə işarə edərək buyurur:

الَّذِينَ هُمْ يُرَاؤُونَ

“onlar həmişə riya edirlər”.

Axırda onlara hətta məişət həyatında lazım olan kiçik əşlaların da belə verilməsinin qarşısını aldıqlarını elan edərək buyurur:

وَيَمْنَعُونَ الْمَاعُونَ

“onlar başqalarını həyatın zəruri olan ləvazımatından belə məhrum edirlər”. Və yaxud onlara Allah tərəfindən vacib olan zəkatı ödəməkdən boyun qaçırırlar. Zəkat içtimai inkişafa aparan bir əmrdir. Acların, yoxsulların, çarəsizlərin əlindən tutub qaldırmaq üçün vacib olub. Onlar zəkatı verməməklə cəmiyyətin fəqərəsinə böyük zərbə vurub onu laxladırlar.

**“Maun” surəsinin hədəfi.**



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Bu surə iki tayfanın bərəsində nazil olub.

1 Kafirlər.

2 Kafir sifət müsəlmanlar.

Bu surənin hədəfi də elə budur ki, bunların pis sifətlərini bəyan edərək insanlara tanıtdırsın ki, insanlar onlardan və onların pis əməllərindən uzaq olsunlar.

Bildirir ki, bu sifətlər hər kəsdə olsa imansızlıq əlamətidir.

**“Maun” surəsinin xüsusiyyətləri.**

1. İmam Baqir(ə) buyurur: “Hər kəs bu surəni vacib və müstəhəb namazlarında oxusa, Allah-Təala onun namaz və orucunu qəbul edər və günahlarını bağışlayar”.

2. Bu surənin nazil olma səbəbini də yazırlar; “Əbu Sufyan” hər gün iki böyük dəvə kəsərdi, özü və ətrafı ondan yeyərdi. Bir gün bir yetim gəlib ondan ət istəyəndə onu əsa ilə vurub qovdu. Bu vaxt bu ayə nazil oldu.

3. Bu surə “təkzibuddin” də deyirlər. Çünki surədə onlardan danışılır.

4. “Ərəytə” (آرأيت) və “Maun” (ماعون) adı ilə də tanınır. Çünki, bu kəlmələr bu surədə işlənibdir.

5. “Maun” surəsi Məkkədə nazil olubdur.

**Suallar və tapşırıqlar.**

1. Bu surə harada nazil olub?



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

2. Bu surənin adları nədir?

3. Niyə kafir sifət müsəlmanlar kafirlərdən pisdirlər?

4. “Maun” surəsinin ikinci ayəsini izah edin.

5. Kafir sifət müsəlmanların əlamətlərini sayın.

6. Dini inkar edənlərin əlamətlərini sayın.

## Doqquzuncu dərs
## “Qureyş” surəsi

بسم الله الرحمن الرحيم

لِإِيلَافِ قُرَيْشٍ إِيلَافِهِمْ رِحْلَةَ الشِّتَاء وَالصَّيْفِ فَلْيَعْبُدُوا رَبَّ هَذَا الْبَيْتِ

الَّذِي أَطْعَمَهُم مِّن جُوعٍ وَآمَنَهُم مِّنْ خَوْفٍ



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

**“Qureyş” surəsinin kəlmələri.**

لِ - ona xatir – ona görə

إِيلَافِ- ülfət – munis olmaq – məhəbbət yaratmaq – dostluq və gəl-get yaratmaq – bağlılıq

قُرَيْشٍ – “Qureyş” Məkkədə bir qəbilənin adıdır, Peyğəmbər (s) də o, qəbilədəndir. Bu mənaları da daşıyır: nəsb edənlər – təftiş edənlər – toplayanlar

هِمْ- onlar – özləri (kişilər)

رِحْلَةَ - kor etmək – səfərə getmək – bir yerdən başqa yerə getmək

الشِّتَاء - qış

الصَّيْفِ- yay

فَلْيَعْبُدُوا - gərək ibadət etsinlər

رَبَّ - pərvərdigar – sahib – malik

هَذَا - bu

الْبَيْتِ - ev

الَّذِي - o kəs ki – o adam ki – elə bir adam ki,

أَطْعَمَهُم - yemək verdi – yedizdirdi

جُوعٍ - aclıq

آمَنَهُم- iman gətirdi – arxayın etdi - əmniyyətdə qərar verdi

خَوْفٍ - qorxu



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

**"Qureyş" surəsinin hərfi tərcüməsi.**

"(Allah-Təala "Əbrəhə"-nin qüdrətli qoşununu məhv etdi) Buna görə ki, "Qureyşin" birliyi möhkəm qalsın, onların bir-birinə olan məhəbbətləri, birlikləri çoxalsın, onların qişda və yayda etdikləri səfərlər tətil olmasın, "Qureyş" gərək bu neymətə görə Kəbənin Allahına sitayiş etsinlər. Çünki o, Allah onlara aclıqdan nicat verdi və onlara qorxudan pənah verdi".

**"Qüreyş" surəsinin təfsiri.**

Bundan əvvəl nazil olmuş "Fil" surəsində danışılan "Əbrəhə"-nin qoşunu göydən gələn bir bəla ilə məhv edildi. Onlar məkkəyə "Qüreyş" qəbiləsinin axırına çıxıb, onları yer üzündən silməyə gəlmişdilər. Allah-Təala onları cəzalandırdı. Buna xatir də "Qüreyş" qəbiləsinə xitab olaraq buyurur:

لِإِيلَافِ قُرَيْشٍ

"onlara göndərdiyimiz bəla "Qüreyş" qəbiləsinin vəhdət və birliyinin qoruması üçün oldu. Onlar bir-birindən ayrılmasınlar, öz vətənlərini və Allahı evini daha artıq sevsinlər".

Bu hadisələrin başqa faydaları da vardır. Onlara sonradakı ayələrdə işarə olunur:

إِيلَافِهِمْ رِحْلَةَ الشِّتَاءِ وَالصَّيْفِ

"onların yayda və qışda etdikləri səfərlər tətil olmasın, yaşayış tərzləri olduğu kimi davam etsin."



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Qureyş yayda "Şama" qışda isə "Yəmənə" səfər edirdilər. Onların səfərlərinin iki cəhətdən faydası var idı.

Birinci siyasi cəhətdən idi. "Qureyş" bu səfərlərdə tanınırdı, şərafətləri çoxalır və getdikləri şəhərləri özlərinə mövqe tuturdular.

Rəsmi olan bu səfərlərin ikinci faydası iqtisadi cəhətdən idi. Onlar bu səfərlərin vasitəsi ilə illik dolanışıqlarını təmin edir və asudə həyat keçirirdilər.

Amma "Əbrəhə"-nin qoşunu bu iki cəhətin ikisini də kökündən qoparmaq fikrində idilər. Ona görə də Allah-Təala ikinci ayədə ona işarə edərək buyurur: "Biz onları məhv etdik ki, "Qureyşin" yay və qış səfərlərinə ziyan toxunmasın".

Sayılan bu nemətlərə körə bu tayfanın boynunda böyük bir haqq vardır. Gərək ona əməl etsinlər və borclarından çıxsınlar. Üçüncü ayə elə həmin məsələyə işarə edir:

فَلْيَعْبُدُوا رَبَّ هَذَا الْبَيْتِ

"indi sizdə öz vəzifəsinə əməl edin, bu evin Allahına ibadət edin. O evə çox bağlı olun, bu evin Allahını yaxşı tanıyın, onun qarşısında həmişə şükr edin".

"Kəbə"-nin "Qureyş" tayfası üçün çoxlu əhəmiytəti var idi. Onlardan bəzilərinə işarə edirik.

1. O evə xatir Allah-Təala "Əbrəhə"-nin qoşununu məhv etdi.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

2. “Kəbə” onların şərəfətinə səbəb olmuşdu. Bu gün də elədir.

3. “Kəbə” Məkkəlilərin böyük iqdisadi mənbələri idi. Ziyarətə gələn milyonlarla insanın orada pul xərcləməsi Məkkəlilərin xeyrinədir.

Bu surənin axırıncı ayəsində başqa nemətlərə işarə edərək buyurur:

الَّذِي أَطْعَمَهُم مِّن جُوعٍ وَآمَنَهُم مِّنْ خَوْفٍ

“Sizə bu nemətlərin hamısını verən Allah elə bir Allahdır ki, sizə aclıqdan nicat verib və qorxudan amanda saxlayıb”. Hətta Məkkədə olan heyvanların da qismən əmniyyətləri vardır. Hacılar ehramda olan vaxt nə kiçik nə də böyük heyvanlardan ovlayıb əziyyət edə bilməzlər.

**“Qureyş” surəsinin hədəfi.**

Bu qəbilə ərəb qəbilələrindən biri idi. Peyğəmbər (s) də bu qəbilədən idi. Onlar tuğyan edərək Peyğəmbər (s)-in dəvətini qəbul etmir və onun qarşısını alır, insanların Peyğəmbər (s)-ə iman gətirməsinə mane olurdular. Buna görə də Allah-Təala bu ayələr ilə onları xəbərdar edir ki, bəlkə fikirləşib, düşünüb Allahın böyük nemətlərinin müqabilində baş əyələr.

**Bu surənin xüsusiyyəti.**



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

1. Bu surənin adı "Qureyş" ona görə olub ki bu surədə onlardan danışılır və bu kəlmə surədə işlənilib.

2. Bu surə Məkkədə nazil olub.

3. Bu surə "Fil" surəsini tamamlayır və bir surə hesab olunurlar.

4. Bu surəni namazda "İxlas" surəsinin yerinə oxuyanda gərək hər ikisi oxunsun.

5. Bu surəni oxumağın səvabı barədə Həzrət Peyğəmbər (s)-dən olan hədisdə belə buyurulub: "Kim bu surəni oxusa Kəbənin ətrafında olan hər adamın sayına on yaxşılıq qazanar".

**Suallar və tapşırıqlar.**

1. Bu surənin adı nədir? Və niyə?
2. Bu surənin hədəfi nədir?
3. "Qureyş" kimdir?



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

# Onuncu dərs
# “Fil” surəsi

بسم الله الرحمن الرحيم

أَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِأَصْحَابِ الْفِيلِ أَلَمْ يَجْعَلْ كَيْدَهُمْ فِي تَضْلِيلٍ وَأَرْسَلَ عَلَيْهِمْ طَيْرًا أَبَابِيلَ

تَرْمِيهِم بِحِجَارَةٍ مِّن سِجِّيلٍ فَجَعَلَهُمْ كَعَصْفٍ مَّأْكُولٍ

**“Fil” surəsinin kəlmələri.**

أَ- Aya (sual sözü) – mi[4] (sual şəkilçisi)

لَمْ ◌- Yox (inkar hissəciyi)

تَرَ - Görürsən – görəcəksən

كَيْفَ - Necə - nə cür

فَعَلَ - etdi - əmələ gətirdi

رَبُّكَ - Allah – sahib – malik – tərbiyə edən

بِ- sən – sənin

أَصْحَابِ- köməkçilər – dostlar

فِيلِ- fil

يَجْعَلْ - edir – düzəldir – qərar verir

كَيْدَ- hiylə - məkr

هُمْ- onlar – özləri

فِي – da[2]

تَضْلِيلِ - batil etmək – nabud etmək – azdırmaq



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

أَرْسَلَ- göndərdi – ezam etdi

عَلَيْ - üzərinə

هِمْ- onlara

طَيْرًا - quş – uçan

أَبَابِيلَ - qaranquşlar – dəstələr – dağınıq dəstələr

تَرْمِي - atır – tullayır

هِم- ona – onu – vasitəsi ilə

حِجَارَةٍ - daş

مِّن- dan[2]

سِجِّيلٍ - daş – palçıq daşlar

فَ - sonra - nəticədə - səbəbi ilə

جَعَلَ- dolandırdı – düzəltdi – qərar verdi

كَ- kimi, (onun mislində)

عَصْفٍ - saman

مَّأْكُولٍ - çeynənmiş yeyilmiş

**“Fil” surəsinin hərfi tərcüməsi.**

“Görmədinmi Allah-Təala fil ilə gələnləri nə etdi? (onlar Əbrəhənin qoşunu idilər, Kəbəni xarab etməyə gəlmişdilər). Onların fikrini və özlərini zərarətə düçar etmədimi? Onların üzərinə dəstə-dəstə quşları göndərdi. Kiçik daşları onların üzərinə atdılar. Nəticədə onları çeynənmiş samana döndərdi”.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

**“Fil” surəsinin təfsiri.**

Surənin təfsirinə başlamazdan əvvəl bu hadisə və surənin nazil olma səbəbi barədə aydınlıq gətirək.

Zunəvas Yəmənin padşahı idi. Özü də yəhudi dininə inanırdı. Həbəşistanın padşahı Nəcaşi də məsihi dinində idi. Əqidə ixtilafına və başqa səbəblərə görə Həbəşistan padşahı böyük bir qoşunla yəmənə hücum etdi və onlarla müharibə etdi. Onları məğlub edib istismar etdi. Yəməni Həbəşistanın bir əyalətinə çevirdi. Əbrəhə adında bir nəfəri ora başçı qoyub, öz ölkəsinə qayıtdı. Əbrəhə öz dinini təbliğ etməklə məşğul idi. Insanların Kəbəni ziyarət etmək üçün getmələrini görüb Yəmənin paytaxtı Səna şəhərində “Məbədül Quleys” adında bitr kilsə tikdirdi və camaatı oranı ziyarət etməyə dəvət etdi. Yenə də camaat Kəbə ziyarətindən əl çəkmədilər.

Bunu görən Əbrəhə böyük bir ordu ilə, fillərə səvar olaraq Məkkəyə tərəf hərəkət etdi. Fikirləşirdi ki, gəlib “Kəbəni” viran etsin, camaatı oradan kilsəyə göndərsin.

Onlara müqavimətə gücü çatmayan camaat dağlara pənah apardılar. Amma Peyğəmbər (s)-in babası Əbdül Mütəllib bir dəstə ilə Kəbəyə gəlib dua edib, ağladılar və Allahdan Kəbəni qorunasını istədilər. Əbdül Mütəllib yoldaşları ilə dağlara çəkildi. Dəstə-dəstə quşlar görünməyə başladı. Ayaq və


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

dimdiklərindəki daşları qoşunun üstünə atıb onları məhv etdi. Bəli Allah-Təala öz evini belə qorudu. O, il fil ili kimi yaddaşlarda qaldı. Həzrət Peyğəmbər (s) o ildə dünyaya gəldi. Allah-Təala bu hadisəni yad edərək Həzrət Peyğəmbər (s)-ə buyurur:

أَلَمْ تَرَ كَيْفَ فَعَلَ رَبُّكَ بِأَصْحَابِ الْفِيلِ

Aya sən görmədinmi sənin Allahın fillərlə Kəbəni dağıtmağa gələnləri nə etdi? Onların başlarına nə bəla gətirdi? Onları necə xar və zəlil etdi?

Bu ayədə Allah-Təala Peyğəmbər (s)-ə "Görmədinmi?" deyə xitab edir. Ona görə ki, bu hadisə elə aşkar olub dünyaya yayılmışdır ki, elə bil hamı və Peyğəmbər (s) onu gözləri ilə görübdür.

أَلَمْ يَجْعَلْ كَيْدَهُمْ فِي تَضْلِيلٍ

"Allah-Təala öz evini müdafiə edərək onları dağıtdı. Onların təchizatlı qoşununu məhv etdi".

وَأَرْسَلَ عَلَيْهِمْ طَيْرًا أَبَابِيلَ تَرْمِيهِم بِحِجَارَةٍ مِّن سِجِّيلٍ

"Quşlar dırnaqlarında və dimdiklərində olan zəhərli daşlar ilə onları vurdular".

فَجَعَلَهُمْ كَعَصْفٍ مَّأْكُولٍ

"Quşların atdığı daşlar onların bədən üzvlərini çeynənmiş samana döndərdi".



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Bəli Allah-Təala öz evini müdafiə edərək düşmənlərini çox böyük əzabla məhv etdi.

**"Fil" surəsinin hədəfi.**

Bu surədən məlum olur ki, Allah-Təala həmişə öz evini və o evin xidmətçilərini qoruyub saxlayıb. Onlara böyük izzət və şərəf bəxş edibdir. Allah-Təala ona etimad edənləri heç vaxt darda qoymayıbdır. Ondan üz döndərənləri, ona qarşı çıxanları elə cəzalandırıb ki, bir daha dirçələ bilməyiblər.

Bəli Allah-Təala belə varlıqdır – kim onun dininə kömək etsə, O, da onlara kömək edib möhkəmləndirər, (إن تنصرالله ينصركم و يثبت اقدامكم) kim Onun yolunda cəhad etsə, Allah da da onu düz yola hidayət edər. Kim onun yolundan azsa zülmət qaranlıqlarda həlak olar. Bu surə "Qureyşə" bildirir ki, sizə belə bir hikmət vermişik, onun qədrini bilin, təkəbbürdən uzaq olun.

Başqa tərəfdən isə, bu hadisə Peyğəmbər (s)-in doğum ilində baş verdiyi üçün bir növ onun peyğəmbərliyi üçün müqəddimə idi. Qureyş Allahın bu nemətini görsün və onun dəvətinə qulaq assınlar.

**"Fil" surəsinin xüsusiyyətləri.**

1. Bu surəni hər kəs vacib namazında oxusa qiyamətdə bütün yer və torpaqlar onun namaz qılan olduğuna şəhadət verər.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Nida olunar ki, “onlar düzgün şəhadət verirlər, bəndəmi hesabsız behiştə daxil edin”.

Bu savab o adama qismət olar ki, bu surəni oxuya və təkəbbürdən uzaq olub həqiqi razılığı olan yolda hərəkət edə.

2. Bu surənin əvvəlində “Fil” kəlməsi işləndiyinə görə belə adlanır.

3. Bu surə Məkkədə nazil olub.

**Suallar və tapşırıqlar.**

1. Bu surənin adı nədir və niyə belə adlanıb?
2. Bu surə harada nazil olub?
3. Bu surənin nazil olmasını izah edin.
4. Əbrəhə nə üçün Məkkəyə hücum etdi?
5. Əbrəhənin qoşunu hansı hadisə ilə üzləşdi?



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

# On birinci dərs
## “Hüməzə” surəsi

بسم الله الرحمن الرحيم

وَيْلٌ لِّكُلِّ هُمَزَةٍ لُّمَزَةٍ  الَّذِي جَمَعَ مَالًا وَعَدَّدَهُ  يَحْسَبُ أَنَّ مَالَهُ أَخْلَدَهُ  كَلَّا لَيُنبَذَنَّ فِي الْحُطَمَةِ
وَمَا أَدْرَاكَ مَا الْحُطَمَةُ  نَارُ اللَّهِ الْمُوقَدَةُ  الَّتِي تَطَّلِعُ عَلَى الْأَفْئِدَةِ  إِنَّهَا عَلَيْهِم مُّؤْصَدَةٌ  فِي عَمَدٍ مُّمَدَّدَةٍ

**“Hüməzə” surəsinin kəlmələri.**

وَيْلٌ – vay, bədbəxtlik, həlakət

لِّ- onun üçün

كُلِّ- bütün, tamam, hamısı

هُمَزَةٍ - çox abırsızlıq gətirən, çox eyib axtaran, çox məsxərə edən, camaatın dili ilə sərkiləyən, insanların üzünə pis söz deyən

لُّمَزَةٍ - söz gəzdirən, göz qaşı ilə camaatı məsxərə edən, qeybət edən

الَّذِي– o kəs ki, o ki



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

جَمَعَ– topladı, üst-üstə yıxdı

مَالًا– mal-dövlət

وَعَدَّدَ- saydı, hazır etdi

هُ- onu

يَحْسَبُ- hesab edir, fikirləşir, xəyal edir

أَنَّ- həqiqətən

مَالَهُ- onun malı, onun sərvəti

أَخْلَدَهُ– daimi, həmişəlik

كَلَّا- belə deyil

لَ - əlbəttə

يُنبَذَنَّ - atılacaq

فِي- da[2]

الْحُطَمَةِ - oda – şiddətli oda – cəhənnəmə - cəhənnəmin təbəqələrindən birinə

وَ - və (bağlayıcı)

مَا- inkar

أَدْرَا - bildi

كَ- sən

مَا أَدْرَاكَ- sən nə bilirsən?

مَا الْحُطَمَةُ - cəhənnəmin bu təbəqəsi nədir

نَارُ - od

اللَّهِ- Allah – məbud



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

الْمُوقَدَةُ - şölələnən, alışmış, alovlu

الَّتِي - elə bir, o ki,

تَطَّلِعُ- əhatə edər

عَلَى - onu – ona üzərinə

الْأَفْئِدَةِ - ürəklər – qəlblər

إِنَّ - həqiqətən

إِنَّهَا- həqiqətən o,

عَلَيْهِم- onları

مُّؤْصَدَةٌ - bağlanmış, daralmış, örtülmüş

فِي – da[2]

عَمَدٍ – sütunlar, söykənəcəklər

مُّمَدَّدَةٍ - çəkilmiş, uzun.

**“Hüməzə” surəsinin hərfi tərcüməsi.**

1. “Vay olsun hər bir məsxərə edib eyb axtarana.

2. O, adam mal toplayır və sayır. (şəri hesabını aparmır). 3. Elə hesab edir ki, malı onu əbədi saxlayacaq. 4. O, fikirləşdiyi kimi deyil, tezliklə əzib-dağıdan bir oda atılacaq. 5. Bilirsən “Hütəmə” nədir.

6. Allahın alovlanmış odudur.

7. Ürəkləri yandıran od.

8. Bu od onları əhatə edər.

9. Uzun sütunlarda”.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

## “Hümәzә” surәsinin tәfsiri.

وَيْلٌ لِّكُلِّ هُمَزَةٍ لُّمَزَةٍ

Vay olsun insanların eybini axtaranlara, vay olsun onları mәsxәrә edәnlәrә vә bu yol ilә cәmiyyәtdә fitnә-fәsad yaradanlara, vay olsun o, adamlara ki, insanları kiçik sayır vә onları tәhqir edirlәr. Vay olsun cәmiyyәtin arasında söz gәzdirәnlәrә. Onlar qaş gözlәri ilә insanların qeybәtini edir, insanların abrını aparırlar.

Birinci ayәdә Allah-Tәala bu cür insanlara xitab edәrәk onların aqibәtini çox pis olduğunu bәyan edir.

İkinci ayәdә isә dünya vә onun mal dövlәtinә aldananların barәsindә buyurur:

الَّذِي جَمَعَ مَالًا وَعَدَّدَهُ

Vay olsun o, adama ki, daim dünya malını toplayıb onu saymaqla mәşğuldur. Vay olsun bu cür insanlara, onlar Allaha ibadәt etmәk әvәzinә pula pәrәstiş edirlәr. Allahı, insanları mal toplamaqdan ötrü fәda edirlәr. Insanların qanını töküb, onlara xәyanәt edirlәr. Bunları ancaq sәrvәt toplamaq üçün edirlәr. Burda bir rәvayәti qeyd etmәk yerinә düşәrdi: İlk dәfә pul icad olanda şeytan onu öpüb gözünün üstünә qoyub dedi: “insanlar pulu sevsәlәr bütpәrәst



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

olmaqlarına ehtiyac yoxdur.” Belə çıxır ki, dünya malını sevən insan şeytanın nəzərində bütpərəst kimidir.

Bu dünyada var-dövlətə həris olan belə fikirləşir ki, onun var-dövləti əbədidir.

يَحْسَبُ أَنَّ مَالَهُ أَخْلَدَهُ

onlar elə hesab edirlər malları sahiblərini əbədi saxlayacaq. Amma düz fikirləşmirlər. Mal-dövlət insanı diri saxlaya bilməz. Onu saxlayan lazımdır. Dünya sərvəti insanı həlakərə aparandır.

كَلَّا لَيُنبَذَنَّ فِي الْحُطَمَةِ

Xeyir! Mal onlara səadət bəxş etmək əvəzində tezliklə onları cəhənnəmin pis bir təbəqəsinə salacaq. Onları cəhənnəmə atanda var-dövlət heç bir kömək edə bilməyəcək.

وَمَا أَدْرَاكَ مَا الْحُطَمَةُ

Ey Peyğəmbər (s) baxmayaraq ki, sənin biliyin çoxdur bununla belə “Hütəmə” (الْحُطَمَةُ) nə olduğunu bilməzsən. Orada nə əzab vardır dərk edə bilməzsən. Çünki bəşər elə bir şeyi görməyibdir.

نَارُ اللَّهِ الْمُوقَدَةُ

Fasid (fəsad törədən–red.) və möhdəkir insanların atıldığı o od eləbir oddur ki, Allahın qəzəbindən vücuda gəlib. Insanların içini yandırar və sonra əzalarına sirayət edər.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

الَّتِي تَطَّلِعُ عَلَى الْأَفْئِدَةِ إِنَّهَا عَلَيْهِم مُّؤْصَدَةٌ فِي عَمَدٍ مُّمَدَّدَةٍ

Allahın qəzəbindən yaranmış od, hündür sütunlara bənzər. Onun alovu insanları əhatə edər və əbədi orada qalıb, nicat tapa bilməzlər.

### "Hüməzə" surəsinin hədəfi.

Təfsirçilərdən bəziləri bu surəni "Vəlid ibni Müğeyrə"-nin barəsində nazil olduğunu vurğulayırlar. O, Peyğəmbər (s)-in ardınca həmişə qeybət edib, üzünə məsxərə edirdi. Bu surə nazil olub Peyğəmbər (s)-i müdafiə edərək, o pis insanın aqibətini bəyan edir.

Pis insanların sonunu Allah-Təalanın şiddətli qəzəbinə görə düçar olacağını açıqlayır.

### "Hüməzə" surəsinin xüsusiyyətləri.

1. Bu surəni oxumağın fiziləti barədə Həzrət Peyğəmbər (s) buyurur: "Kim bu surəni oxusa, məni məsxərə edənlərin hər nəfərinə görə Allah-Təala ona on dənə yaxşılıq yazar".

İmam Sadiq(ə) buyurur: "Kim bu surəni vacib namazda oxusa, fəqirlik və pis ölüm ondan uzaq olar, bol ruzi ona qismət olar".

2. Bu surə beş dəstənin barəsində nazil olub:

2.1 Eyb axtaranlar
2.2 Pis danışanlar
2.3 Sözgəzdirənlər



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

2.4 Məsxərə edənlər
2.5 Sərvətpərəstlər

3. Bu surənin adı onda olan “Hüməzə” və “Lüməzə” kəlmələrindən götürülüb.

4. Bu surə Məkkədə nazil olub.

5. Bu surə bəyan edir ki, mala həris olmaq və təkəbbürlük cəhənnəmə düşməyə səbəb olar.

**Suallar və tapşırıqlar.**

1. Bu surənin adı nədir?
2. Bu surə harada nazil olub?
3. Bu surənin hədəfi nədir?
4. Bu surədən bir ayəni təfsir edin.

## On ikinci dərs
## “Əsr” surəsi

بسم الله الرحمن الرحيم

وَالْعَصْرِ إِنَّ الْإِنسَانَ لَفِي خُسْرٍ إِلَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ وَتَوَاصَوْا بِالْحَقِّ وَتَوَاصَوْا بِالصَّبْرِ

**“Əsr” surəsinin kəlmələri.**

وَ- and, and olsun

عَصْرِ- gecə-gündüz, dövran, zaman, günün axır saatları, axşam qabağı, əsr namazı

إِنَّ - həqiqətən



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

إِنسَان- insan – adəm övladı.

لَ- əlbəttə

فِي- da[2]

خُسْرٍ - zərər–ziyan, sərmayənin əldən getməsi, azmaq, aldanmaq, ziyan etmək, xəsarətə uğramaq

إِلَّا - məgər – istisna, dan[2] başqa

الَّذِينَ – onlar, onlar ki,

آمَنُوا - iman gətiriblər

عَمِلُوا- əməl edərlər

صَّالِحَاتِ- saleh işlər, yaxşı işlər

وَتَوَاصَوْا - bir-birinə vəsiyyət / tövsiyyə edirlər

بِالْحَقِّ - həqiqət, düz, ədalət, yəqin, Allah

بِالصَّبْرِ - səbr – çətinliklərə dözmək – hədəf yolunda dözmək

**“Əsr” surəsinin hərfi tərcüməsi.**

“1. And olsun əsrə. 2. Bütün insanlar ziyandadır. 3. iman gətirib, saleh əməl edib, bir-birini haqqə və səbrə dəvət edənlərdən başqa”.

Bu surənin təfsirinə başlamazdan əvvəl Quranda olan “adlar” barədə bir qədər məlumat verək. Qurani-Kərim 114 surədən ibarətdir. Onun 23-ü “and” ilə başlanır. “Əsr” surəsi də onlardan biridir. Bu 23 surədə 69 dəfə and içilibdir. Onlardan bir qismi



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

göylərə (والسماء والطارق) və göylərdəkilərə, bir qismi yerlərə (والأرض و ما طحاها) və yerlərdəkilərə, qalan qismi isə zamana (والعصر) and içilibdir.

“Əsr”(عصر) sözünün əsl mənası “Sıxılmağa” deyilir. “Axşam vaxtı”-na ona görə əsr deyilir ki, günün işləri o vaxta qədər sıxılır və gərginləşir.

Təfsirçilər “Əsr” kəlməsini müxtəlif mənalarda işlədiblər. Onlara misal olaraq göstərmək olar: zaman, bəşərin tarixi, peyğəmbərin zühur etmə zamanı, əsr namazının vaxtı, İmam Zaman (ə.f.)-in qiyam dövrü, qiyamət zamanı.

Belə bir sual ilə üzləşə bilərik. Qurandakı andların hədəfi və məqsədi nədir?

Cavabında belə demək olar: Allah-Təala Quranda varlıq aləminin bəzilərinə and içir. Bununla da istəyir ki, insanlar həmin mövcudların böyüklüyünə, əhəmiyyətinə varıb onlarda olan əcaibliyi dərk etsinlər. Onlardan gələn xeyirləri anlasınlar. Bu yol ilə Allah-Təala insanları tövhidə, Allahı tanımağa tərəf yönəldir. Onun elmi sirlərinə yiyələnməyə çağırır. Bir sözlə Quranın and içməkdə hədəfi ali, mühüm dini və əxlaqi, elmi və ictimai məsələlərdir.

**“Əsr” surəsinin təfsiri.**

وَالْعَصْرِ   إِنَّ الْإِنسَانَ لَفِي خُسْرٍ


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

And olsun əsrə (yuxarıda onun mənalarını demişik) insanlar ziyandadırlar. İnsan həmişə süqut etmək, məhv olmaq, və bədbəxt olmaq təhlükəsi ilə üz-üzədir. İnsanın nəfəs alması ki, onun ömrünü uzadır, o, da öz ziyanınadır. Çünki hər nəfəs aldıqca ömründən azalır. Həzrət Əli (ə) buyurur: “Ömrünüzün vaxtı, nəfəslərinizin sayı qədərdir”, “Sizin ömrünüz çox qiymətlidir, onu behiştdən başqa heç nəyə satmayın”.

Belə məlum olur ki, insanın sərmayəsi onun ömrüdür. O, ömrün vasitəsi ilə axirət məqamını qazanmalıdır. əks halda ziyankar olacaq.

إِلَّا الَّذِينَ آمَنُوا

“Ziyandan uzaq olanlar iman gətirənlərdir”. Yəni insanın imanı olmazsa ömrü onun əleyhinə işləyir.

وَعَمِلُوا الصَّالِحَاتِ

Ziyandan qoruna bilən ikinci dəstə yaxşı əməllər edənlərdir: “Ziyanda olmayanlar yaxşı əməllər edənlərdir”. Yaxşı əməl edir ömürlərini bu işdə sərf edirlər. Onların ürəyi yaxşı əməllərin nəticəsində nurlanar. Ruhları və əqilləri qüvvətlənər. Insani və əxlaqi keyfiyyətləri yaxşılaşar.

وَتَوَاصَوْا بِالْحَقِّ



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

Ziyandan uzaq olmanın bir şərti də vardır. O, da başqalarını özü ilə birlikdə həqqə dəvət etməkdir. Başqa ibarətlə desək özü haqq yolunda olaraq başqalarını da o yola dəvət edirsən "Onlar həqqə dəvət edərlər".

وَتَوَاصَوْا بِالصَّبْرِ

Nicat tapmağın bir şərti də çətin və müsibətli işlərdə dözümlü olmaqdır. Xoşa gəlməz hadisələrin qarşısında "aramla" dayanmaqdır. "Belə zamanlarda həm özü səbirli olur, həmdə başqalarını səbrə dəvət edir".

**"Əsr" surəsinin hədəfi.**

Yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar. Əgər insanın imanı olmasa, saleh əməl edib salehliyə dəvət etməsə, çətin günlərdə səbr edib insanları səbrli olmağa yönəltməsə ziyankardır. Ziyandan uzaq olmanın yolu ancaq bu deyilənlərdədir.

**"Əsr" surənin xüsusiyyətləri.**

1. İmam Sadiq(ə) buyurur: "Hər kəs bu surəni müstəhəb namazlarda oxusa, gözü aydın, üzü gülər və nurani halda qiyamətdə məbus olar".

2. Bu surə 4-dənə xoşbəxtlik əlamətlərini bəyan edir.

1. İmam.
2. Saleh əməl.
3. Həqqə dəvət.
4. Səbr etmək.


+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com

2. Bu surədə "Əsr" kəlməsi işləndiyinə görə belə adlanıbdır.

3. Bu surə Məkkədə nazil olub.

**Suallar və tapşırıqlar.**

1. Bu surənin adı nədir?
2. Qurandakı adlar nə üçündür?
3. Quranda neçə surə and ilə başlanır?
4. Bu surənin hədəfini bəyan edin.



+994556099234 v.vusal@gmail.com
www.ehlibeyt-aka.com



Rüstəmov Əhliman Fidatxan oğlu 1967-ci il mart ayının 8-də Cəlilabad rayonu Qarğılı kəndində anadan olmuşdur. Elə həmin kəndin orta məktəbində ibtidai sinfilərinin, sonra Masallı rayon Sığıncaq kənd orta məktəbində oxuyarkən təcvid elimini mənimsəmişdir Dini təhsilini və ilahiyyat elimlərini Azərbaycanın görkəmli, imanlı ruhani alimi mərhum molla Bəylərdən əxz etmişdir. Ustadının yolunu davam etdirərək yiyələndiyi dini və ilahiyyat elmlərini tədris etməklə üzərinə düşən elmin zəkatını əda etmişdir. Uzun müddət Nardaran qəsəbəsində Sahibəz-Zaman (ə.c.) mədrəsəsində sərf, nəhf, əhkam, islam tarixi, əqidə əsasları, fiqh, üsul, məntiq və s. ilahiyyat elmlərini tədris etmişdir. Bakı İslam Universitetinin məzunu və müəllimi olmuşdur. Bir neçə kitab müəllifidir. Hal hazırda Hacı Cavad məscidinin imam cüməsidir